

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 12 (906) ■ 4 aprel 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# İran İslam Respublikasının Prezidenti Azərbaycanda rəsmi səfərdə olub

Martın 28-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin rəsmi qarşılanma mərasimi olub. Fəxri qonağı dövlətimizin başçısı İlham Əliyev qarşılayıb. Sonra hər iki prezidentin təkbətək görüşü olub.

İran və Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin dinamik inkişaf etdiyini bildirən Prezident İlham Əliyev həm siyasi, həm də iqtisadi, mədəni, enerji, nəqliyyat - bütün sahələrdə yaxşı nəticələr olduğunu qeyd edib. Prezident Həsən Ruhani isə vurğulayıb ki, regionun iki böyük milləti, iki böyük xalqı ortaq tarix və mədəniyyətə sahibdir. Eyni zamanda, ortaq məqsədlər də müəyyənləşdirilib ki, qarşıdakı hədəflərə nail olunsun: «Keçmişdə razılaşdığımız məsələlər bu gün öz töhfəsini verir və sabah da biz bir neçə açılışın şahidi olacağıq. Budəfəki səfərimizdə də əldə edəcəyimiz razılaşmalar, qətiyyətlə deyə bilərəm ki, iki ölkənin əlaqələrinin inkişafına xidmət edəcək. Biz Azərbaycanın təhlükəsizliyini və suverenliyini öz təhlükəsizliyimiz və suverenliyimiz hesab edirik. İki dövlət, iki millət və iki xalqın iradəsi ilə biz bu əlaqələri daha da inkişaf etdirəcəyik».

Təkbətək görüş başa çatdıqdan sonra hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib. Daha sonra isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub. «Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə İran İslam Respublikasının Qadın və Ailə Məsələləri üzrə Vitse-Prezidentliyi arasında Əməkdaşlıq haqqında İcra Proqramı», «Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə İran İslam Respublikasının İdman və Gənclər Nazirliyi arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun 2018-2019-cu illər üzrə İcra Planı», «Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında 2018-2021-ci illər üçün Mədəniyyət və İncəsənət üzrə Mübadilə Proqramı», «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumuna dair Fəaliyyət Proqramı», «Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə İran İslam Respublikasının Neft Nazirliyi arasında Xəzər dənizində müvafiq blokların birgə işlənilməsi haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə İran İslam Respublikasının Sənaye, Mədən və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə İran İslam Respublikasının İqtisadi İşlər və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında İran İslam Respublikası ərazisində Astara-Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi haqqında Saziş»i imzalanıb.

İmzalanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani mətbuata bəyanatlarla çıxış ediblər. Dövlətimizin başçısı bildirib ki, iki ölkə arasında əldə edilmiş razılaşmalar icra edilir və yaxşı nəticələr verir: «Son dörd il ərzində bir çox önəmli sənədlər imzalanmışdır ki, bu sənədlər İran-Azərbaycan əlaqələrinin hərtərəfli inkişafına böyük təkan vermişdir. Biz beynəlxalq arenada da fəal əməkdaşlıq edirik, bir-birimizi daim dəstəkləyirik. BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində daim bir-birimizə dəstək göstəririk. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunması ilə bağlı İran daim Azərbaycanın haqlı mövqeyini dəstəkləyir və beynəlxalq təşkilatlarda öz səsini qəbul edilmiş qətnamələrə verir. Ona görə, biz İrana çox minnətdarıq. Eyni zamanda, Azərbaycan da bütün beynəlxalq məsələlərdə daim İranın yanındadır».



Azərbaycan Prezidenti tərəflər arasında iqtisadi sahədə əməkdaşlığın dərinləşdiyini, qarşılıqlı sərmayə qoyuluşunun hər iki ölkənin maraqlarına xidmət etdiyini, ticarət dövriyyəsinin artırılması istiqamətində müvafiq işlər görüldüyünü qeyd edib: «Ümumiyyətlə, demək istəyirəm ki, bizim əlaqələrimiz təkcə ikitərəfli formatla məhdudlaşmır, biz artıq üçtərəfli, dördtərəfli əməkdaşlıq formatı çərçivəsində uğurla fəaliyyət göstəririk. Azərbaycan, İran, Rusiya prezidentlərinin iki görüşü Bakıda və Tehranda, Azərbaycan, İran, Türkiyə xarici işlər və digər nazirlərinin görüşü, bu yaxınlarda Bakıda keçirilmiş Azərbaycan, İran, Gürcüstan, Türkiyənin xarici işlər nazirlərinin birinci görüşü - bütün bu görüşlər regional əməkdaşlığa, sabitliyə, sülhə dəstək verir. Bu gün bizim ölkələrimiz regional formatda da uğurlu əməkdaşlıq apararaq, ümumi işimizə çox böyük töhfə verirlər».

Mətbuata bəyanatla çıxış edən İran Prezidenti Həsən Ruhani vurğulayıb ki, iki ölkə arasındakı qarşılıqlı etimad indi daha da artıb, imzalanan sənədlər xalqlarımızın mənafeyinə, bölgənin, eləcə də bütün dünyanın xeyrinə ola biləcək sənədlərdir: «Tranzit məsələsinə gəldikdə, Şimal-Cənub dəhlizi İranın cənub bölgəsinin sularını, Fars körfəzini, Oman dənizini və Hind okeanını, həmçinin avtomobil yolu və dəmir yolu vasitəsilə Qafqaz, Mərkəzi Asiya və Rusiya ilə birləşdirir, eləcə də Şimali və Şərqi Avropanı. Bu, onu göstərir ki, Şimal-Cənub nəqliyyat dəhlizi nə qədər böyük əhəmiyyət daşıyır. İki ölkənin Rəşt-Astara dəmir yolu barəsində qərarı dövlətlərimizin bu layihəyə nə qədər böyük əhəmiyyət verdiyinin göstəricisidir. Xəzər dənizində bizim çoxlu birgə mənafelərimiz vardır. Biz gərək elmi, iqtisadi, ticari, gəmiçilik, balıqçılıq, turizm sahələrində əməkdaşlıq etməklə maksimum səmərə əldə edək».

İranın dövlət başçısı Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həll edilməli olduğunu diqqətə çatdırıb: «Biz belə düşünürük ki, Qarabağ problemi siyasi yolla tənzimlənməlidir. Azərbaycan və Ermənistan dövlətlərinin səyi ilə biz bölgədə möhkəm sabitliyin bərqərar edilməsinin şahidi olmaq istəyirik. Biz şadıq ki, bu müstəvidə diplomatik səylər göstərilir. Bizim üçün əhəmiyyətlidir ki, ölkələrin ərazi bütövlüyü və bölgənin coğrafiyası dəyişməməlidir. Dünya ictimaiyyətinin hörmətlə yanaşdığı beynəlxalq prinsiplər məsələnin həlli üçün alətə çevrilməlidir».

...Martın 29-da Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan-İran biznes forumu keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Həsən Ruhani forumda iştirak ediblər. Dövlət başçıları biznes-forumda nitq söyləyiblər.

# Bakıda görkəmli yazıçının adını daşıyan mədəniyyət ocağı istifadəyə verilib

Martın 30-da Bakıda, İçərişəhərdə Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin açılış mərasimi olub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak ediblər.



Görkəmli yazıçının həyat yoldaşı Anna İbrahimbəyova Mərkəzin binasında yaradılmış şəraitlə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verib ki, burada Maqsud İbrahimbəyovun muzeyi, yazıçının kitabxanası və ədəbiyyat otağı yerləşir. Ədəbiyyat otağında yazıçının müxtəlif illərdə həm rus, həm Azərbaycan dillərində nəşr olunan, həm də 36 xarici dilə tərcümə edilən kitabları təqdim olunur. Eksponatlar arasında Maqsud İbrahimbəyovun ədəbiyyat və ictimai-siyasi fəaliyyət sahələrində əldə etdiyi nailiyyətlərə görə müxtəlif vaxtlarda təltif olunduğu orden və medallar, digər mükafatlar, deputat mandatları, fəxri fərmanlar, həmçinin 2012-ci ildə yazıçının Nobel mükafatına namizədliyinə dair sənəd də var.

Birinci vitse-prezident Mehriban Əliyeva Yaradıcılıq Mərkəzinin xatirə kitabına ürək sözlərini yazıb. Sonra Anna İbrahimbəyova Maqsud İbrahimbəyovun sədri olduğu və zadəgan nəslindən olan şəxslərin şəcərəsini tanıtmaq və yaddaşlarda qoruyub saxlamaq məqsədini daşıyan Əsilzadələr Məclisinin 2006-cı ildə imzaladığı, İlham Heydər oğlu Əliyevin və Mehriban Arif qızı Əliyevanın Əsilzadələr Məclisinin üzvü olduqlarını təsdiqləyən şəhadətnamələri Birinci vitse-prezidentə təqdim edib.

Açılış mərasimində çıxış edən Mehriban Əliyeva bildirib ki, Maqsud İbrahimbəyovun Yaradıcılıq Mərkəzi ölkəmizin mədəni, ədəbi, mənəvi, ictimai-siyasi irsinə mühüm töhfələr verən böyük insanın, görkəmli Azərbaycan yazıçısının xatirəsini əbədiləşdirir. Eyni zamanda, bu, çox rəmzi məna daşıyır. «Son dərəcə parlaq, çoxşaxəli, qeyri-adi, hədsiz istedadlı insan - Maqsud müəllim təəssüf ki, artıq iki ildir aramızda yoxdur. O, əsl vətənpərvər idi. O, bütün qəlbi ilə Azərbaycana, öz torpağına bağlı idi. O, cəsarətli vətəndaş mövqeyi olan insan idi. O, öz ideallarını və prinsiplərini bütün həyatı boyu dəyişməyib. O, uzun ömrünü səmimi, hər şeylə maraqlanan, biganəlikdən uzaq bir insan kimi yaşadı. O, həyatdan getdi, ancaq onun əsərləri, böyük bədii-mənəvi irsi - kitabları, pyesləri, ssenariləri, esseləri qaldı. Onun hər bir əsəri bu günümüz və dünənimizlə heyrətamiz dərəcədə səsləşir və şübhə etmirəm ki, sabah da aktual olacaq. Onun hər bir əsəri yaşayır. Buna görə də Maqsud müəllim yaşayır. İnsanlar - onun dostları, yaxınları, doğmaları, onu sevən, ona hörmət edən, həyatının bütün mərhələlərində onun yanında olan insanlar qalır».

Mehriban xanım Əliyeva Yaradıcılıq Mərkəzinin istedadlı gənclərin müxtəlif görüşlərinin keçirildiyi, Azərbaycan yazıçılarının, ədiblərin dəstəkləndiyi, ədəbi-bədii gecələrin təşkil olunduğu məkan kimi əsl mədəniyyət ocağına çevriləcəyinə əminliyini ifadə edib.

## Rəsmi xronika

- Aprelin 3-də Prezident İlham Əliyev Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, hüquq mühafizə orqanları, o cümlədən ədliyyə nazirlikləri arasında sıx əməkdaşlığın ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi işinə töhfə verdiyi bildirilib.
- Dövlətimizin başçısı aprelin 3-də Ekvador Respublikasının xarici işlər naziri xanım Maria Fernanda Espinosa Qarsesi qəbul edib. Bakıda keçirilən Qoşulmama Hərəkatı çərçivəsində nazirlər konfransında iştirakından məmnunluğunu ifadə edən qonaq Azərbaycanın misli görünməmiş dərəcədə inkişafa nail olduğunu bildirib, ölkəmizin beynəlxalq aləmdə çox mühüm bir mövqeyə malik olmasının önəmini vurğulayıb.
  Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirib və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın möhkəmləndirilməsinin vacibliyini qeyd edib.
- Aprelin 2-də Prezident İlham Əliyev Belarus Respublikasının Baş nazirinin müavini, hökumətlərarası komissiyanın həmsədri Vladimir Semaşkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə iki ölkə arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, əlaqələrimizin daha da möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib. Söhbət zamanı əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsinin vacibliyi vurğulanıb, ölkələrimiz arasında ticarət dövriyyəsinin daha da artırılmasının zəruriliyi qeyd edilib.
- Prezident İlham Əliyev martın 30-da ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu missiyasının rəhbəri xanım Korin Yonkeri qəbul edib. Söhbət zamanı Azərbaycanda qarşıdan gələn prezident seçkilərinin keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısı seçkilərin demokratik, qanunvericiliyə uyğun keçiriləcəyinə, ədalətli və şəffaf olacağına, Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə əminliyini ifadə edib.

Vergilər naziri Türkiyə Respublikasının səfiri ilə görüşüb — səh. 2

Əməkdaşlıq memorandumu imzalanıb — səh. 2

Vergi orqanı ilə vergi ödəyicisi arasında inamın şərti: şəffaflıq, aydınlıq, biznesə eyni meyarlarla yanaşma — səh. 3

Nağdsız hesablaşmalar iqtisadi inkişafı sürətləndirir — səh. 5

# Vergilər naziri Türkiyə Respublikasının səfiri ilə görüşüb



Martın 30-da vergilər naziri Mikayıl Cabbarov Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral ilə görüşüb. Görüşdə qarşılıqlı iqtisadi əlaqələrin daha da gücləndirilməsi və genişləndirilməsi perspektivləri, iki ölkənin vergi xidməti orqanları arasında müxtəlif proqramlar çərçivəsində uğurlu əməkdaşlıq məsələlərinə toxunulub.

# Sahibkarlıq fəaliyyətinin stimullaşdırılması iqtisadiyyatın davamlı inkişafına töhfə verəcək

Mövcud iqtisadi şəraitdə ölkədə qəbul edilmiş irimiqyaslı konsepsiyaların, sosial və iqtisadi strategiyaların, inkişaf proqramlarının davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri» iqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlilinə əsaslanmaqla, ölkənin perspektiv inkişaf hədəflərini və istiqamətlərini müəyyənləşdirir.

Strateji yol xəritələrində səmərəli vergi sisteminin tətbiqi sayəsində əlverişli biznes mühitinin inkişaf etdirilməsi və təşviqi başlıca məqsəd kimi müəyyənləşdirilib. Fiskal intizamın təmin edilməsi, dövlət büdcəsi göstəricilərinin proqnozlaşdırılması və büdcə resurslarının sektorlararası və sektorlardaxili düzgün bölüşdürülməsi qarşıya məqsəd kimi qoyulub. Bu məqsədlərə nail olmaq üçün həyata keçirilən büdcə-vergi siyasəti cari və sonrakı illər üçün ölkədə gedən iqtisadi proseslərə ahəngdar şəkildə uyğunlaşdırılır. Dövlətin büdcə-vergi siyasətinin əsas istiqamətləri bunlardır:

- vergi orqanları ilə vergi ödəyiciləri arasındakı münasibətlərdə qarşılıqlı etimadın yüksəldilməsi və vergi sistemində şəffaflığın təmin edilməsi;
- vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması;
- vergi ödəyicisinin fəaliyyətinin şəffaflaşdırılması və ədalətli vergi yükünün müəyyən edilməsi;
- kiçik və orta sahibkarlıq sahəsində, o cümlədən regionlarda ixrac fəaliyyəti ilə məşğul olan kiçik və orta sahibkarlıq subyektləri üzrə stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi;
- vergi uçotunun təmin edilməsi məqsədilə vergi ödəyicilərinin gəlirlərinin və xərclərinin uçotunun təkmilləşdirilməsi;

**Həyata keçirilən büdcə-vergi siyasəti cari və sonrakı illər üçün ölkədə gedən iqtisadi proseslərə ahəngdar şəkildə uyğunlaşdırılır**

- özəlləşdirilən dövlət müəssisələrinin təyinatı üzrə inkişafını təmin etmək və investisiyaları cəlb etmək üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;
- nağdsız əməliyyatların stimullaşdırılması;
- vergi ödəyicilərinin sahibkarlıq fəaliyyətində istifadə olunan təsərrüfat subyektlərinin (obyektlərinin) dəqiq uçotunun təmin edilməsi
- əlavə dəyər vergisinin malların (işlərin, xidmətlərin) təqdim edilməsi üzrə dəyər zənciri boyunca hesablanması ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi;
- qeyri-rəsmi məşğulluğun leqallaşdırılması və işəgötürən-işçi münasibətlərinin tənzimlənməsi;
- qanunsuz sahibkarlığın və vergidən yayınmaların qarşısının alınması ilə bağlı vergi nəzarəti metodlarının təkmilləşdirilməsi və vergi inzibatçılığının səmərəliliyinin artırılması.

Bunlarla yanaşı, ölkədə aparılan vergi islahatları əsasən vergitutma bazasının genişlənməsinə, vergi nəzarətinin müasir tələblərə uyğun təkmilləşdirilməsinə, vergi ödəyicilərinin hüquqlarının müdafiəsinə, vergi inzibatçılığının sadələşdirilməsinə hədəflənib. Həyata keçirilən islahatlar bilavasitə ölkə iqtisadiyyatının şaxələndirilməsi və ixrac-yönümlü iqtisadi inkişafın təşviqi vasitəsilə iqtisadi artımın sürətləndirilməsinə, eləcə də orta və uzunmüddətli dövrdə vergi sistemində səmərəliliyin artırılmasına, büdcənin dayanıqlığının təmin edilməsini nəzərdə tutan büdcə gəlirlərinin əldə olunmasına, sahibkarlığın stimullaşdırılmasına və həm daxili, həm də xarici investisiyaların təşviqinə xidmət edir.

**Rəşad SADIQOV**

# Əməkdaşlıq memorandumu imzalanıb

Aprelin 3-də Vergilər və Təhsil nazirlikləri arasında əməkdaşlıq memorandumunun imzalanma mərasimi keçirilib. Tədbirdə vergilər nazirinin müavini Sahib Ələkbərov, təhsil nazirinin müavini Firudin Qurbanov və SABAH qrupları İcra Komitəsinin rəhbəri Şahin Seyidzadə çıxış ediblər.

Sahib Ələkbərov çıxışında qeyd edib ki, dörd il əvvəl Təhsil Nazirliyinin təşəbbüsü ilə bir sıra ali təhsil ocaqlarında xüsusi istedadlı tələbələrdən ibarət SABAH qruplarının təşkil edilməsi çox mühüm layihədir. Bu qruplara cəlb edilmiş gənclərin yeni və fərqli bir mühitdə təhsil alması, savadlı, bacarıqlı və hazırlıqlı kadr kimi yetişdirilməsi, layihənin əmək bazarının artan tələblərinə uyğun olaraq kadr hazırlığına istiqamətlənməsi nəticəsində hər bir dövlət qurumu öz insan resursları bazası üçün spesifik tələbatlarına uyğun kadrlar əldə edə bilər: «Vergilər Nazirliyi işə qəbul etdiyi şəxsləri seçərkən müasir düşüncəli, yeniliklərə açıq, öz potensialını reallaşdırmaq istəyən və buna hazır olan təşəbbüskar gənclərə üstünlük verir. Bu günə kimi işə qəbulla bağlı Vergilər Nazirliyi və Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunan müsabiqələrdə uğur qazanmış 1356 nəfər gənc vergi orqanlarında işlə təmin edilib. Bu isə hazırda vergi xidməti əməkdaşlarının yarısından çoxunu təşkil edir. Vergi orqanlarında rəhbər vəzifələrdə çalışan şəxslərin 32%-dən çoxunun yaşı 35-dən aşağıdır ki, bu da kadr siyasətində təcrübəli kadrlarla yanaşı, gənclərə də geniş yer verildiyini göstərir».




Nazir müavini tədbir iştirakçılarının nəzərinə çatdırıb ki, vergi orqanlarının fəaliyyəti günün tələblərinə uyğun olaraq durmadan yenilənir, təkmilləşdirilir. Öz fəaliyyətində müasir texnoloji resurslardan geniş istifadə edən Vergilər Nazirliyi bu gün elektron hökumətin ən mühüm həlqələrindən biridir. Hazırda vergi xidmətində vergi risklərinin müəyyən edilməsi və yayındırılan vergilərin aşkarlanması məqsədilə «Risklərin idarə edilməsi» sistemi, elektron audit kimi innovativ alətlər uğurla tətbiq olunur. Vergi ödəyicilərinə 60-dan çox elektron xidmət göstərilir, vergi bəyannamələrinin hazırlanmasından tutmuş, onların göndərilməsi və vergilərin ödənilməsinə qədər bütün proseslər elektronlaşdırılıb. Bu gün vergi xidmətində çalışan əməkdaş bütün iş proseslərini informasiya texnologiyaları vasitəsilə həyata keçirir və təbii ki, bu da hər bir vergi işçisinin yüksək biliklərə, bacarığa və iş təcrübəsinə malik olmasını tələb edir.

Bildirilib ki, Vergilər Nazirliyi 2017-2019-cu illər üçün dövlət vergi orqanlarında insan resurslarının inkişafı Strategiyasını qəbul edib: «Strategiya hazırlanarkən biz bu sahədə mövcud olan qabaqcıl beynəlxalq təcrübəni yaxından öyrənmişik. Xüsusilə də 2014-2016-cı illərdə Avropa İttifaqının «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» tvinninq layihəsi çərçivəsində öyrənilmiş təcrübələri nəzərə almışıq. Bu təcrübələr sırasında kadrların əvvəlcədən hazırlanması, insan resurslarının ehtiyat potensialının yaradılması, bacarıqlı kadrların vergi orqanlarında işə qəbul edilməsi və tərbiyə olunması da vardır. Hesab edirəm ki, bu yeni layihə də strategiyamızın məhz bu istiqamətinə xidmət edəcəkdir».



Sonra o, tədbir iştirakçılarına Vergilər Nazirliyi tərəfindən layihəyə dəstək çərçivəsində görüləcək işlər, planlaşdırılan tədbirlər barədə məlumat verib.

Təhsil nazirinin müavini Firudun Qurbanov çıxışında milli təhsil quruculuğu sahəsində aparılan islahatlardan və əldə olunan nailiyyətlərdən danışıb. Qeyd edib ki, qısa müddətdə təhsilin maddi-texniki baza infrastrukturu müasir tələblər səviyyəsinə çatdırılıb. Ölkəmizdə son 10 ildə 3000-dən çox yeni məktəb tikilib istifadəyə verilib və əsaslı təmir olunub. Hazırda bu infrastrukturu genişləndirmək məqsədilə ölkə Prezidentinin sərəncamı ilə modul tipli məktəblər inşa olunur. Təkcə ötən il Azərbaycanda 100 modul məktəb tikilib istifadəyə verilib, bu il isə daha 137 belə məktəbin ölkəmizin ən ucqar kəndləri daxil olmaqla, inşa olunacağı planlaşdırılıb. Bütün bu tədbirlər təhsilin keyfiyyətinin artırılmasına istiqamətləndirilib.

Nazir müavini vurğulayıb ki, ölkəmizdə insan kapitalının inkişafına böyük diqqət yetirilir və bu yöndə ali təhsil sistemində yeganə çoxşaxəli islahat layihəsi olan SABAH qruplarının fəaliyyət və məqsədləri dövlət strategiyasında əhatə olunan məqsədlərlə əlaqəlidir: «İmzalanmış memorandumun əsas məqsədi budur ki, ölkənin əsasən ali təhsil ocaqlarında təhsil alan tələbələr təkcə bilik əldə etməklə kifayətlənməsinlər, həm də nəzəri biliklərini təcrübə əsasında möhkəmləndirsinlər. Bacarıqlar təcrübələr vasitəsilə formalaşır. Bu memorandum tələbələrə həm nazirlikdə, həm də nazirliyin digər strukturlarında təcrübə keçmək, vergi siyasətindəki yeniliklər və islahatlarla operativ tanış olmaq imkanı yaradır. Ali məktəblərdə fəaliyyət göstərən müəllimlərin Vergilər Nazirliyində keçirilən treninqlərdə iştirakı əhəmiyyətli olduğu kimi, nazirliyin əməkdaşlarının da təhsil sistemində iştirakı çox önəmlidir».

F.Qurbanov qeyd edib ki, təhsil müəssisələrində vergi mədəniyyətinə həsr olunmuş kurs keçilməsi planlaşdırılır və bu baxımdan, memorandum bundan sonrakı əməkdaşlığın səmərəli inkişafının əsasını qoyur.

SABAH qrupları İcra Komitəsinin rəhbəri Şahin Seyidzadə çıxışında diqqəti SABAH qruplarında nəzəriyyə ilə təcrübə arasında tarazlıq axtarılmasının zəruriliyinə yönəldərək, bu məqsədə nail olmaq üçün memorandumun böyük perspektivə malik olduğunu qeyd edib.

Tədbirin sonunda Sahib Ələkbərov və Firudin Qurbanov Vergilər və Təhsil nazirlikləri arasında Əməkdaşlıq Memorandumunu imzalayıblar.

**F. İKRAMQIZI**

# SABAH-ın tələbəsi nəzəri biliklərini tətbiqi bacarıqlarla birləşdirir



Ölkəmizin təhsil sisteminin müasirləşdirilməsi istiqamətində atılmış ciddi addımlardan biri də SABAH qruplarının təşkilidir. Suallarımızı SABAH layihəsinin rəhbəri Şahin Seyidzadə cavablandırır.

**- Şahin müəllim, sizcə, SABAH layihəsi haqqında yığcam və aydın təsəvvür yaratmaq üçün diqqəti hansı məqamlar üzərində cəmləşdirmək olar?**

- SABAH ali məktəblərdə tədrisin keyfiyyətinin yüksəldilməsi, ali təhsil sistemində yeni və fərqli bir mühitin yaradılması, savadlı, bacarıqlı və hazırlıqlı tələbə yetişdirilməsi, əmək bazarının artan tələblərinə müvafiq olaraq kadr hazırlığının təmin edilməsi məqsədilə yaradılmış qruplardır. Bu qruplar 2014/2015-ci tədris ilində ölkənin 7 ali təhsil müəssisəsində 5 ixtisas istiqamətini (təhsil, texniki, təbiət, humanitar, iqtisadiyyat) əhatə edən 34 ixtisas üzrə formalaşdırılmışdır. Hazırda SABAH qrupları 12 ali təhsil müəssisəsini, 6 ixtisas istiqaməti üzrə (təhsil, texniki, təbiət, humanitar, iqtisadiyyat, incəsənət) 40-dan artıq ixtisas və 2300-dən çox tələbəni əhatə edir.

SABAH qruplarının 650 nəfərə yaxın müəllim-professor heyəti respublikamızın ali təhsil müəssisələrindən seçilmiş müəllimlər, Kanada və İngiltərədən dəvət olunmuş yerli dil daşıyıcıları, həmçinin Azərbaycandakı yerli və xarici şirkətləri təmsil edən peşəkarlardan ibarətdir.

SABAH qruplarına tələbələrin qəbulu və professor-müəllim heyətinin seçimi müsabiqə yolu ilə aparılır.

**- SABAH-ın devizi savadlı, bacarıqlı və hazırlıqlı tələbədir...**

- SABAH-ın tələbəsi akademik göstəriciləri ilə fərqlənməli, peşəkar inkişafın yalnız auditoriya divarları arasında tamamlanmadığını dərk edərək nəzəri biliklərini müxtəlif təlim, məşğələ və təcrübə proqramlarından istifadə etməklə tətbiqi bacarıqlar ilə birləşdirməlidir.

SABAH qruplarının əsas məqsədlərindən biri daim dəyişən kadr bazarı üçün müasir bilik və bacarıqlara malik peşəkarların və məsuliyyətli vətəndaşların yetişdirilməsidir.

---

**- SABAH qruplarının əməkdaşlıq istiqamətləri barədə nə deyə bilərsiniz?**

- SABAH qrupları layihəsinin məqsədlərindən biri akademik və işgüzar mühitlər arasındakı qarşılıqlı əməkdaşlığın genişlənməsi prosesini yaxından dəstəkləməkdir. Bu məqsədlə 2014-cü ildən başlayaraq ölkəmizdə fəaliyyət göstərən 60-dan artıq dövlət qurumu və özəl müəssisə ilə müxtəlif istiqamətlərdə əməkdaşlıq edilir. SABAH qruplarının tələbə və professor-müəllim heyətinin davamlı peşəkar inkişafını təmin etmək məqsədilə SABAH Karyera Akademiyası yaradılmış, eləcə də Ali Məktəb Müəllimlərinin I Forumu, SABAH İnnovasiya Forumu, SABAH Karyera Qış Məktəbi, SABAH Xaricdə Təhsil Sərgisi, habelə bir çox təlim və mühazirələr təşkil olunmuş, ümumilikdə 600-dən artıq SABAH tələbəsi müxtəlif təcrübə proqramlarına cəlb edilmişdir.

**İki nazirlik arasında imzalanmış memorandum gənc nəsildə vergi mədəniyyətinin formalaşdırılması istiqamətində daha genişmiqyaslı işlərin görülməsinə zəmin yaradacaq**

**- Vergilər Nazirliyi və SABAH qrupları arasında memorandumun imzalanmasından sonra gələcək əməkdaşlığı necə görürsünüz?**

- Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Təhsil Nazirliyi arasında imzalanmış əməkdaşlıq memorandumu qarşıya qoyulan ortaq məqsədlərə çatmaq, ölkəmizin gənc insan kapitalını dəyərləndirmək və dəstəkləmək yolunda atılmış birgə addımdır. Bu sənəd çərçivəsində hər iki nazirliyin insan resurslarının peşəkar inkişafı, eyni zamanda ali təhsil müəssisələrində yetişən on minlərlə tələbənin bilik, bacarıq və daha çox peşəkar inkişaf imkanları əldə etməsi üçün əlverişli imkanların yaradılması nəzərdə tutulur. Memorandum Vergilər Nazirliyi əməkdaşlarının ali təhsil müəssisələrində elmi-pedaqoji fəaliyyətə cəlb olunmasını, müasir standartlara cavab verən kadr hazırlığı proqramlarının, müvafiq sahə üzrə biliklərin vahid qiymətləndirilməsi formasının, təhsil müəssisələri üçün vahid vergi proqramının tərtib edilməsini, Təhsil Nazirliyi tərəfindən mövcud səlahiyyət və imkanlar çərçivəsində istedadlı gənclər üçün həyata keçirilən xüsusi layihələrə dəstək göstərilməsini, birgə elmi-praktik konfranslar, olimpiadalar, seminarlar, «dəyirmi masa»lar, treninqlər keçirilməsini və bu qəbildən olan bir çox məsələləri əhatə edir.

---

**- SABAH qrupları gənc nəsildə vergi mədəniyyətinin formalaşdırılması istiqamətində hansı fərqli töhfələr verəcək?**

- SABAH qruplarında mövcud olan bir sıra ixtisasların tədris planlarına əsasən, vergi və vergitutma sahəsində müəyyən fənlər tədris edilir. Bundan əlavə, ali təhsil müəssisələrinin müvafiq ixtisaslarında təhsil alan IV kurs SABAH tələbələri 2016/2017-ci tədris ilindən Vergilər Nazirliyində, eləcə də onun struktur müəssisələrində istehsalat təcrübəsinə cəlb olunmuşlar. İki nazirlik arasında imzalanmış memorandum gənc nəsildə vergi mədəniyyətinin formalaşdırılması istiqamətində daha genişmiqyaslı işlərin görülməsinə zəmin yaradacaq.

***Müsahibəni hazırladı:***
**FƏXRİYYƏ**

# Vergi orqanı ilə vergi ödəyicisi arasında inamın şərti:
## şəffaflıq, aydınlıq, biznesə eyni meyarlarla yanaşma



Azərbaycanda yeni iqtisadi şəraitə uyğun aparılan institusional islahatların əhatə dairəsinin genişlənməsi, maliyyə-fiskal idarəetmənin təkmilləşdirilməsi istiqamətində atılan addımlar beynəlxalq qurumların da diqqət mərkəzindədir. Müsahibimiz «PricewaterhouseCoopers» (PwC) beynəlxalq konsaltinq şirkətinin Azərbaycan üzrə idarəedici partnyoru Mövlan Paşayevdir.

***- Mövlan müəllim, Azərbaycanda azad biznesin inkişafı ilə bağlı aparılan islahatları təmsil etdiyiniz qurum yaxından izləyir. Bu prosesdə hansı əsas məqamları vurğulamaq istərdiniz?***

- Biznesin dövlət tənzimləmə mexanizmlərinin effektivliyinin artırılması, vergi-gömrük idarəetməsinin keyfiyyətinin yüksəldilməsi, bazara daxilolma məhdudiyyətlərinin minimuma endirilməsi, eyni zamanda azad rəqabət mühitinin, azad biznes şərtlərinin təmin olunması, sahibkarlığın iqtisadiyyatda rolunun artırılması ilə onların hüquq və mənafelərinin qorunması sahəsində ardıcıl islahatlar həyata keçirilməkdədir.

Yürüdülən yeni iqtisadi siyasət və biznesə dövlət dəstəyi tədbirlərinin artırılması, sahibkarlarla sağlam münasibətin qurulması ölkədə azad sahibkarlığın perspektiv inkişafına güclü zəmin yaradır. Bu baxımdan, apardığımız araşdırmalara əsasən deyə bilərəm ki, iri biznes təmsilçiləri iqtisadiyyatın və əmtəə qiymətlərinin sabitləşməsi, ölkədə həyata keçirilən institusional islahatlar və iqtisadi şaxələndirmə fonunda qısa və ortamüddətli inkişaf perspektivlərinə nikbin baxırlar.

***- «PwC Azərbaycan»ın bu günlərdə apardığı sorğunun nəticələri açıqlanarkən qeyd edilmişdi ki, biznes sektorunda risklər hələ də qalmaqdadır. Bunun əsas səbəblərini necə şərh edərdiniz?***

- Artıq ictimaiyyətə açıqladığımız «CEO Survey - 2018» sorğusunda biznes sektorunda inamsızlığa təsir edən amillər diqqət mərkəzində saxlanmışdı. Bunun əsas səbəbləri daha çox xarici amillərlə bağlıdır. 2015-2016-cı illərdə qlobal böhranın Azərbaycan iqtisadiyyatına təsirləri özəl sektorda bir sıra problemlərin yaranmasına səbəb oldu, baş verən iqtisadi proseslər biznes təmsilçilərində müəyyən sarsıntı yaratdı. Ancaq geosiyasi və iqtisadi baxımdan yenidən formalaşan dünyada risklər və çağırışlar düzgün qiymətləndirilməklə Azərbaycan dövləti tərəfindən təsirli addımların atılması, biznesin fəaliyyəti üçün stimullaşdırıcı və təşviqedici tədbirlərin görülməsi problemin qarşısını aldı, sabit inkişafı təmin etdi. Bununla yanaşı, biznes sektorunun özü yeni çağırışlara uyğun hərəkət etməyə başladı və iqtisadi şəraitə adaptasiya olundu. 2017-ci ildə sabitliyin bərpa edilməsi, iqtisadiyyatda fəallığın yüksəlməsi, qeyri-neft istehsalı və ixracının xüsusi çəkisinin artması, maliyyə sabitliyinin təmin olunması biznes sektorunda qeyri-müəyyənlikləri azaltdı.

Biznes qurumlarının əksəriyyəti üzləşdikləri problemlərin öhdəsindən gəlsələr də, postböhran dövründəki şoklar hələ də onları qayğılandırır. Biznes sektoru üçün mühüm faktorlardan biri müəyyənlikdir. Valyuta dəyişkənliyi, regionun geosiyasi qeyri-sabitliyi, maliyyə və vergi sistemindəki dəyişikliklər, vergi yükü ilə bağlı qeyri-mütənasiblik, əlverişli kapitala və maliyyə xidmətlərinə çıxışın məhdudluğu iş adamları üçün müəyyən risklər yaradır. Bu baxımdan, biznes sektorunun üzvlərini inandırmaq lazımdır ki, aparılan pul siyasəti maliyyə sabitliyinin təmin edilməsi və uzunmüddətli biznes planlarının həyata keçirilməsi üçün imkan verir. Biznes ictimaiyyəti istəyir ki, bu məsələlərin hər biri üzrə konkretlik və aydınlıq olsun. Bundan başqa, kommunikasiya amili də biznes sektoru üçün problemlərdən biridir. Biznes təmsilçiləri üçün iqtisadi sektorda baş verən yeniliklər, dəyişikliklər haqqında ətraflı, geniş məlumat əldə etmək imkanları təmin olunmalıdır.

---

***- Vergi yükü ilə bağlı qeyri-mütənasiblik dedikdə, hansı meyarlar nəzərdə tutulur?***

- Söhbət vergi yükünün ağır olub-olmamasından getmir, biznes üçün əsas narahatlıq vergi yükünün qeyri-mütənasib paylanması, bu sahədə müəyyənliyin təmin edilməməsidir. Burada əsas problem vergitutma zamanı dövriyyəsindən asılı olmayaraq biznesin bütün qruplarına eyni meyarlarla yanaşma ilə bağlıdır. Bəzən vergi yükü bərabər paylanmayıb, ədalətlilik əmsalı pozulub. Vergi orqanı biznes sektorunun bütün nümayəndələrinə eyni meyarlarla yanaşma tətbiq etməli, qaydalar aydın, şəffaf olmalıdır. Nəzarət sistemi bərabərliyə əsaslanmalı, mütənasiblik qorunmalıdır. Sahibkar tam əmin olmaq istəyir ki, onun vergi yükü nə qədərdir, hansı həcmdə vergi ödəyir, ödənişi nə vaxt etməlidir. Bilmək istəyir ki, vergini ödəmədikdə onu hansı cəzalar gözləyir, yaxud vergiləri tam həcmdə və vaxtında ödəyibsə, onun üçün hansı əlverişli imkanlar təmin olunacaq, hansı stimullaşdırıcı addımlar atılacaq.

> Vergilər Nazirliyinin yeni strategiyasında əsas fundamental faktorlardan biri biznesə yanaşmanın müasir meyarlara uyğunlaşdırılmasıdır

Vergilər Nazirliyinin yeni strategiyasında əsas fundamental faktorlardan biri biznesə yanaşmanın müasir meyarlara uyğunlaşdırılmasıdır. Şəffaflıq, aydınlıq, ayrı-seçkiliyə yol verməmək vergi orqanı ilə vergi ödəyicisi arasında inamı möhkəmləndirə bilər. Vergi sistemində bu aspektlərin təmin ediləcəyinə inanıram və növbəti hesabatda həmin amillərin öz həllini tapacağını düşünürəm. Bu isə biznes sektorunun mövqeyində əhəmiyyətli müsbət dəyişikliklər olacağına imkan yaradacaq.

***- Siz biznes sektorunda şəffaflıqla bağlı problemlərin olduğunu qeyd etdiniz. Əgər biznes özü şəffaf deyilsə, ümumi uğurlardan necə danışmaq olar?***

- Şəffaflıq qarşılıqlı olmalıdır. Şirkətlərdə də ciddi problemlər var: mühasibat, uçot sistemi, maliyyə hesabatlarının tərtibi və təqdim olunması sahəsində nöqsanlar qalır. Bu, təkcə vergi hesabatları ilə bağlı deyil, başqa qurumlara təqdim edilməli sənədlərdə də bəzi uyğunsuzluqlar var, audit və maliyyə hesabatlarının, digər sənədlərin tərtibi yeni meyarlara uyğunlaşdırılmalıdır. Audit institutu yenidən qurulmalı, biznes sektorunun hər kateqoriyası üzrə fərqli yanaşma mexanizmləri tətbiq edilməli, risk qrupları nəzərə alınmalıdır.

***- Biznes sektorunun rəyi öyrəniləndə, adətən, iri sahibkarlıq subyektlərinin fikirlərinə daha çox üstünlük verilir...***

- Doğrudur, orta və kiçik biznesdə problemlər mövcuddur. Maliyyə xidmətlərindən faydalanmada, kapitalın əldə olunmasında belə hallar özünü daha çox göstərir. Ümumiyyətlə, kapitalın əldə edilməsi yerli şirkətlər üçün əsas əngəllərdəndir. Xarici banklar Azərbaycan şirkətlərinə pul vermək üçün o qədər də həvəsli deyillər. Onların bu sahədə tərəddüd etməsinin səbəbi Azərbaycan şirkətlərində korporativ idarəetmənin adekvat olmaması, şəffaflığın aşağı səviyyəsi, audit və maliyyə hesabatları ilə bağlı problemlər və digər amillərdir. Xüsusilə mühasibat və audit sahəsində ciddi nöqsanlar var. Bazar iştirakçıları da məsuliyyətini anlayaraq yeni iqtisadi reallıqlara adaptasiya olunmalıdır. Şirkətlərdə idarətmənin təkmilləşdirilməsinə ehtiyac var. Bu cür problemlər həll olunsa, kapitalın əldə edilməsi də asanlaşacaq.

2018-ci ilin əvvəllərində Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin yaradılması özəl sektorun, kiçik sahibkarlığın inkişafına mühüm töhfə verəcək. Bu qrupa aid biznes icmasının maliyyə xidmətlərinə çıxışı, informasiya-kommunikasiya resurslarından istifadəsi asanlaşacaq. Agentlik onların marketinq və satış imkanlarının yaxşılaşmasına, dövlət-özəl sektor əməkdaşlığının güclənməsinə, korporativ idarəetmənin səmərəliliyinin artmasına şərait yaradacaq.

Orta və kiçik biznes sektorunun rəy sorğusunda iştirak etməsinə gəlincə, «PwC Azərbaycan» şirkəti növbəti sorğuda bu sektorun daha geniş təmsil olunmasını planlaşdırır.

***Hazırladı:***
**Elbrus CƏFƏRLİ**

---

# Elektron xidmətlər vergi ödəyicilərinin işini asanlaşdırır

Vergi orqanı ilə vergi ödəyiciləri arasında birbaşa təmasların minimuma endirilməsi, vergi inzibatçılığının sadələşdirilməsi - elektron xidmətlərin keyfiyyətinin artırılması Vergilər Nazirliyinin fəaliyyətinin əsas istiqamətlərindəndir. Bu xidmətlər fiziki (fərdi sahibkarların) və hüquqi şəxslərin onlayn qeydiyyatı, vergi ödəyicisinin uçot məlumatlarının dəyişdirilməsi, fəaliyyətinin dayandırılması və bərpası, vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) onlayn qeydiyyatı və qeydiyyatdan çıxarılması, NKA-nın və POS-terminalların onlayn qeydiyyatı və qeydiyyatdan çıxarılması, vergi bəyannamələrinin elektron şəkildə təqdim edilməsi, vergilərin elektron formada ödənilməsi və s. istiqamətləri əhatə etməklə, demək olar ki, vergi ödəyiciləri ilə vergi orqanları arasında əlaqələrin bütün mərhələlərini əhatə edir.

Vergilər Nazirliyində vətəndaşlara və vergi ödəyicilərinə vergi orqanlarına İnternet Vergi İdarəsi (www.e-taxes.gov.az) vasitəsilə onlayn müraciət etmək imkanı yaradılmış, bu məqsədlə hər bir istifadəçi üçün fərdi elektron qutu təşkil edilmişdir. İstifadəçilərə onlayn kargüzarlıq vasitəsilə etdikləri müraciətlərin vergi orqanlarında hərəkətini «Əməliyyat tarixçəsi» vasitəsilə real vaxt rejimində izləmək və bu müraciətlərin cavabları ilə öz elektron qutuları vasitəsilə tanış olmaq imkanı yaradılıb.

Vergi ödəyicilərinin fəaliyyəti ilə bağlı əksər ərizə və sənədlərin internet vasitəsilə avtomatik formada tərtib edilərək vergi orqanlarına təqdim edilməsi üzrə işlər yekunlaşdırılmışdır. Ərizələrlə yanaşı, vergi ödəyiciləri tərəfindən məktub, şikayət, sorğu, təklif, tender məlumatı, cari vergi ödəmələrinin hesablanması haqqında arayış «Onlayn kargüzarlıq» sistemi vasitəsilə sərbəst qaydada göndərilir və cavablandırılır.

**misal**

Sənədlərin göndərilmə qaydasını əyaniləşdirmək üçün vergi ödəyicisi vergi orqanlarına İnternet Vergi İdarəsi (www.e-taxes.gov.az) vasitəsilə **«ƏDV-nin qeydiyyatı ərizəsi»**ni necə işlədiyini nəzərdən keçirmək olar. Bunun üçün «Yeni müraciət» düyməsindən istifadə etməklə açılan pəncərədə

- ➔ «Kimə» siyahısından - Vergilər Nazirliyi
- ➔ «Müraciətin növü» siyahısından - Ərizə
- ➔ «Sənədin növü» siyahısından - ƏDV qeydiyyatı ərizəsi seçilir.
- ➔ «Qəbul» düyməsindən istifadə edildikdən sonra açılan ekranda əməliyyatlar ardıcıllıqla yerinə yetirilir:
  - → 1.Qeydiyyat növü siyahıdan seçilir
  - → 2.Qüvvəyə minmə tarixi daxil edilir
  - → 3.İrəli düyməsindən istifadə edilir.

Monitora daxil edilmiş məlumatların yoxlanılması üçün növbəti təsdiqləmə ekranı çıxır. Bu zaman məlumatların doğruluğuna əmin olduqda, onu təsdiqləmək üçün «Qəbul» düyməsi, əks halda, «İmtina» düyməsindən istifadə edilir. Təsdiqdən sonra ekrana «ƏDV qeydiyyatı barədə bildiriş» məlumatı çıxır. «Çap» düyməsi «Bildiriş»i çap etmək üçün, «Bağla» düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulur.

Ödəyici tərəfindən göndərilən elektron ərizə onun «Göndərdiklərim» qovluğuna düşür və istifadəçi buradan «Əməliyyat tarixçəsi» vasitəsilə ərizəsinin Vergilər Nazirliyində gedişatını izləyə bilir. Beləliklə, sahibkar vergi orqanına gəlmədən istənilən yerdə, istənilən vaxtda, qısa zaman kəsiyində ƏDV qeydiyyatına alınmış olur.

**R. SADIQOV**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2018-ci ilin yanvar-fevral aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş **1 milyard 824,7 milyon** manat vəsaitin **816,2 milyon** manatı və ya 44,7%-i qeyri-neft sektoruna sərf edilib.
- Azərbaycan 2017-ci ildə **6,5 ton** bal məhsulunu 5 ölkəyə ixrac edib ki, onun da **93,8%**-i Yaponiyanın payına düşür.
- Aprelin 5-dən 7-dək Bakı Ekspo Mərkəzində keçiriləcək 17-ci Azərbaycan Beynəlxalq «Turizm və Səyahətlər» sərgisində **90**-dan çox turizm istiqaməti təqdim olunacaq.
- Bu ilin iki ayında Azərbaycanın dəmir yolu nəqliyyatı ilə **221 min** tondan çox yük ixrac edilib.
- Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları 2018-ci il aprel ayının 1-nə **5 mlrd. 508 mln.** ABŞ dolları təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə **1 mlrd. 75,3 mln.** dollar və ya 24,26% çoxdur.

---

# Hər kəsin borcu...

Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinə əsasən qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında yerinə yetirmək hər kəsin borcudur. Vergi öhdəliklərini tam həcmdə və vaxtında yerinə yetirməyən, o cümlədən vergini hesabatda göstərilməli məbləğə nisbətən azaldan və büdcəyə çatası vergi məbləğini hesabat təqdim etməməklə vergidən yayındıran şəxslərə qarşı qanunvericiliklə müəyyən olunmuş maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri tətbiq edilir.

Vergi ödəyicisi vergi öhdəliyini müəyyən olunmuş müddətdə yerinə yetirmədikdə, vergi borclarının ödənilməsini təmin etmək üsulu kimi aşağıdakı tədbirlər görülür:

- Vergi Məcəlləsinin 59.1-ci maddəsinə əsasən, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün ödənilməyən vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1%-i məbləğində faiz hesablanır;
- Vergi Məcəlləsinin 65.2-ci maddəsinə əsasən, milli və ya xarici valyutada cari, yaxud digər hesablardan vergi borclarının alınması üçün banklara və ya digər kredit təşkilatlarına icra (ödəniş) sənədi olan sərəncam verilir;
- Vergi Məcəlləsinin 23.1.15-3-cü maddəsinə əsasən, vergi ödəyicisi olan fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün vergi orqanı tərəfindən məhkəməyə müraciət edilə bilər;
- Vergi Məcəlləsinin 23.1.1-ci və 50-ci maddələrinə əsasən, gəlir götürmək üçün istifadə edilən, yaxud vergi tutulan obyektlərin və ya əmtəə-material ehtiyatlarının saxlanılması ilə bağlı anbar, ticarət və bu qəbildən olan digər binalarda (ərazilərdə) (yaşayış binaları (sahələri) istisna olmaqla), nəqliyyat vasitələrində (sahibkarlıq fəaliyyəti üçün istifadə edilməyən şəxsi nəqliyyat vasitələri istisna olmaqla) operativ vergi nəzarəti həyata keçirilə bilər;
- Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, borclu vergi ödəyicisinə məxsus əmlaklar (daşınar və ya daşınmaz əmlaklar) siyahıya alına bilər;
- Vergi Məcəlləsinin 23.1.15-1-ci və 23.1.16-cı maddələrinə əsasən, borc məbləğlərinin avtonəqliyyat vasitələrinə və ya əməkhaqqına yönəldilməsi məqsədilə məhkəmə orqanlarına müraciət edilə bilər.
- Vergi borcunun məcburi qaydada alınması məqsədilə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məhkəmə orqanlarına və ya icra qurumlarına müraciət edilə bilər.

Cinayət Məcəlləsinin 213-cü maddəsinə əsasən, xeyli və ya külli miqdarda vergiləri ödəməkdən yayınma cinayət əməli hesab olunur.

Gəlirlər barədə göstəricilərin düzgün əks etdirilmədiyi bəyannamələr əlaqəli məlumatlardan istifadə edilməklə müəyyənləşdirilmiş faktiki gəlir məbləğləri ilə üzləşdirilir və vergidən yayındırılmış məbləğlər kameral hesablama aparılmaqla vergi ödəyicisinin şəxsi vərəqəsində bərpa olunur. Ona görə də biznes fəaliyyəti ilə bağlı risk yaratmamaq, maliyyə sanksiyası və daha sərt cəzalarla üzləşməmək üçün ən doğru yol qanunvericiliyin tələblərinə əməl etmək - vergi öhdəliklərini vaxtında və tam şəkildə yerinə yetirməkdir!

***16 aprel gəlir və mənfəət vergisi üzrə bəyannamələrin təqdim edilməsi və cari ödəmələrin son müddətidir.***

***20 aprel tarixi aşağıdakı vergi bəyannamələrinin təqdim edilməsinin son günüdür:***

- *Əlavə dəyər vergisinin bəyannaməsi;*
- *Xüsusi notariusların gəlir vergisi bəyannaməsi;*
- *Sadələşdirilmiş verginin (o cümlədən daşınmaz əmlakın təqdim edilməsi və pul vəsaitlərinin nağd çıxarılması üzrə) bəyannaməsi;*
- *Aksiz bəyannaməsi;*
- *Yol vergisi bəyannaməsi;*
- *Mədən vergisi bəyannaməsi;*
- *Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla) bəyannaməsi;*
- *Ödəmə mənbəyində (o cümlədən uduş və mükafatlardan) tutulan vergi bəyannaməsi;*
- *Dövlət rüsumunun tutulması barədə hesabat.*

Qeyd edək ki, əlavə məlumat almaq vergi ödəyiciləri üçün qeydiyyatda olduğu vergi orqanına, vergi ödəyicilərinə xidmət mərkəzlərinə, «195-1» Çağrı Mərkəzinə və Vergilər Nazirliyinin www.taxes.gov.az internet ünvanına müraciət edə bilərlər.

**RƏŞAD**

---

# Azərbaycanlı iş adamları Qazaxıstanda zavod tikirlər

Son illər Azərbaycan biznesmenlərinin təkcə respublikamızda deyil, xarici ölkələrdə də fəaliyyətlərini genişləndirməsi ənənəvi hal alıb. Qazaxıstanın Manqistau vilayətində üç yeni istehsalat müəssisəsini birləşdirən zavodun azərbaycanlı iş adamları tərəfindən inşa olunması da bu qəbildəndir.

«AktauEnerqoMaş» şirkətinin «Aktau Morport»da xüsusi iqtisadi ərazidə tikilən bu zavod üç müəssisədən ibarətdir. Zavodun tikintisinə 50 milyon ABŞ dolları ayrılıb və hazırda tikinti ilə bağlı əsas işlər görülüb başa çatmaq üzrədir. Müəssisələrdən biri kabel məhsulları və transformatorlar istehsal edəcək. İllik təxminən 250 transformatorun istehsalı nəzərdə tutulan zavodun məhsullarının təkcə daxili bazar üçün deyil, bir sıra MDB dövlətlərinə idxalı nəzərdə tutulub. Digər müəssisə polimer qablaşdırmanın istehsalı ilə məşğul olacaq və burada il ərzində təxminən dörd yüz ton plastik qab və konteyner istehsal ediləcək. Şəhərin sənaye ərazisində yerləşəcək digər müəssisədə mebel və plastik pəncərələr istehsal ediləcək.

Bu ilin sonuna istifadəyə verilməsi planlaşdırılan zavodda iki yüz adamın işlə təmin olunacağı nəzərdə tutulub.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

### ƏDV-nin əvəzləşdirilməsi

***Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan şəxslər tərəfindən həmin fəaliyyət üzrə digər şəxslərdən alınmış mallara (işlərə, xidmətlərə) görə ödənilmiş ƏDV-nin məbləği əvəzləşdirilirmi?***

Vergi Məcəlləsinin (VM) 164.1.18-ci maddəsinə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışı üzrə dövriyyələr 2014-cü il yanvarın 1-dən 5 il müddətinə ƏDV-dən azaddır.

ƏDV-dən azad olunan, yaxud ƏDV-yə cəlb edilməyən əməliyyatlar aparan şəxslər tərəfindən mallar (işlər, xidmətlər) alınarkən bu maddə ilə müəyyən olunmuş qaydada ödənilmiş ƏDV məbləği əvəzləşdirilmir (VM, maddə 175.6).

**Qeyd olunanlara əsasən:**

Kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən sənaye üsulu ilə) tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı digər şəxslərdən alınmış mallara (işlərə, xidmətlərə) görə ödənilmiş ƏDV məbləğləri əvəzləşdirilmir.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az**
elektron poçt ünvanına göndərə bilərsiniz

# Kredit zəmanət mexanizmi

Son vaxtlar ölkəmizin iqtisadi sistemində aktuallaşan anlayışlardan biri də kredit zəmanət mexanizmidir. Bu, kiçik və orta sahibkar üçün nəzərdə tutulmuş maliyyə məhsuludur. Borcalan öhdəliyini ödəmədiyi təqdirdə, bu mexanizm kreditin hamısını və ya bir qismini ödəməyi öhdəsinə götürür. Mexanizmin əsas hədəf qrupu geriödəmə qabiliyyəti olan, ancaq bir sıra məhdudiyyətlərə görə kredit əldə edə bilməyən kiçik və orta sahibkarlardır. Mövzunu İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) eksperti Ayaz Çaparlı şərh edir.

Kredit zəmanət mexanizmi - kiçik və orta sahibkarların maliyyə məhdudiyyətlərini aşmasına imkan yaradaraq kredit zəmanətli investisiyaların maliyyələşdirilməsi üçün sahibkarların uzunmüddətli kreditlərlə təmin olunmasını dəstəkləyir. Bundan əlavə, mexanizm bankların yeni və daha geniş əhatəyə çıxışını asanlaşdırır, risklərin minimallaşdırılmasını təmin edir.

Kiçik və orta sahibkarlara kredit verilərkən risklərin minimallaşdırılması, problemli kreditlərin qarşısının alınması baxımından bu mexanizmin faydası böyükdür. Zəmanət mexanizminin tətbiqi kiçik və orta sahibkarların xərclərinin azalmasına və faiz dərəcələrinin aşağı olmasına imkan yaradır, bank sistemində kredit monitorinqinin inkişafını və innovativliyi təmin edir.

Prezident İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli fərmanı ilə yaradılmış Kredit Zəmanət Fondu Azərbaycanda sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi məqsədi daşıyır. Fond iş adamlarının kommersiya banklarından milli valyuta ilə aldıqları kreditlərə təminat verən və həmin kreditlərə hesablanmış faizlərin bir hissəsini subsidiyalaşdıran hüquqi şəxs kimi çıxış edir. Kredit Zəmanət Fondunun yaradılması real sektorla maliyyə sektoru arasındakı iqtisadi tarazlığın bərpa olunması, maliyyə risklərinin bölüşdürülməsi, bankların dayanıqlığının və real sektora maliyyə axınının gücləndirilməsi, eləcə də əks-dollarlaşmanın stimullaşdırılmasına nail olmaq üçün mühüm addımdır. Fond maliyyə inklüzivliyinin artırılması, maliyyə xidmətlərinin çatdırılması kanallarının diversifikasiyası, habelə sahibkarların maliyyə mənbələrinə çıxış imkanlarının genişləndirilməsi və maliyyə xidmətlərindən istifadənin yaxşılaşdırılmasını təmin edəcək. Bununla yanaşı, yeni qurum ölkədə maliyyə inklüzivliyinin artımına nail olunması ilə iqtisadi fəaliyyətin dəstəklənməsinə, sahibkarlığın inkişafına, məşğulluğun artırılmasına, ev təsərrüfatlarının istehlak imkanlarının genişlənməsinə və gəlir bərabərsizliyinin aradan qaldırılmasına əlavə dəstək verə bilər.

Qeyd edək ki, Kredit Zəmanət Fondunun Nizamnaməsinin layihəsini, nizamnamə kapitalının miqdarını, o cümlədən sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminatın verilməsi qaydasının layihəsini hazırlayan dövlət və özəl sektorun nümayəndələrindən ibarət İşçi Qrupda özəl sektor aparıcı kommersiya banklarının və qabaqcıl audit şirkətlərinin nümayəndələri ilə təmsil olunur. Bundan əlavə, fondun Müşahidə Şurası dövlətin iqtisadi-maliyyə qurumlarının nümayəndələri ilə yanaşı, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının və Azərbaycan Banklar Assosiasiyasının nümayəndələrindən formalaşır. Bununla da Kredit Zəmanət Fondunun işində maraqlı tərəflərin iştirakı, açıqlıq, hesabatlılıq və şəffaflıq prinsiplərinə riayət olunması təmin edilir.

***Hazırladı:***
**F.İKRAMQIZI**

# İran Azərbaycandan elektrik enerjisi alacaq

İran İslam Respublikasının energetika naziri Reza Ardakaniya bildirib ki, Prezident Həsən Ruhaninin martın 29-da Bakıya rəsmi səfəri çərçivəsində Azərbaycandan elektrik enerjisinin alınması barədə razılaşma əldə olunub: «Hazırda hər iki tərəf 700 meqavat elektrik enerjisinin mübadiləsini həyata keçirmək imkanına malikdir».

Nazirin sözlərinə görə, tərəflər həmçinin İran, Azərbaycan və Rusiyanın enerji xətlərinin sinxronlaşdırılmasına yönəlmiş tədbirlər barədə də qərar qəbul ediblər.

# «Made in Azerbaijan» dünyaya çıxır

«Made in Azerbaijan» brendinin xarici ölkələrdə tanıdılması, ölkəmizin ixrac və investisiya imkanlarının təşviqi, yerli şirkətlərin biznes əlaqələrinin daha da genişləndirilməsi dövlətin iqtisadi hədəflərində başlıca yer tutur.




Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun vitse-prezidenti Yusif Abdullayev bildirib ki, bu il ixrac məhsullarının çeşidinin və coğrafiyasının şaxələndirilməsi, «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqi, ixracın stimullaşdırması üçün əlverişli şərtlər təmin ediləcək, logistika, infrastruktur imkanları yaxşılaşdırılacaq, xarici bazarlara çıxış imkanları artırılacaq. İxrac missiyalarının və satış yarmarkalarının, eləcə də xarici ölkələrdə Azərbaycanın ticarət nümayəndəlikləri və evlərinin sayı artırılacaq, xarici tərəfdaşlarla milli ixracatçılar arasında əlaqələrin genişləndirilməsi istiqamətində əlavə tədbirlər görüləcək, ölkəmizə alıcı missiyaları təşkil ediləcək. «Made in Azerbaijan»ı təşviq edən sahibkarlar üçün güzəştlərin əhatəsi artırılacaq, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə əldə etdiyi sertifikat və patentin almasına, ixrac layihələrinin hazırlanmasına çəkilən xərclər dövlət büdcəsi hesabına ödəniləcək.

## İxrac missiyaları

«Made in Azerbaijan» brendinin tanıdılması 9 fərqli mexanizmi - dəstək tədbirini əhatə edir. Bu tədbirlər sırasında ixrac missiyaları mühüm yer tutur. Missiyaların məqsədi yeni bazarlara çıxış imkanlarını aşkar etmək, mövcud bazarlarda yerli məhsulların mövqeyini möhkəmlətmək və bu bazarlara yeni məhsullar təqdim etməkdir. Azərbaycan mənşəli qeyri-neft məhsullarının ixracı ilə məşğul olan hər bir ixracatçı bu dəstək tədbirlərinə müraciət etmək hüququna malikdir.

Ötən il AZPROMO-nun təşkilatçılığı ilə Çinə, Birləşmiş Ərəb Əmirliklərinə, Almaniyaya, Əfqanıstana, Pakistana, Qətərə, Qazaxıstana, Macarıstana, Rusiyaya və Səudiyyə Ərəbistanına ümumilikdə 10 ixrac missiyası təşkil olunub. İxrac missiyalarında 160-dan çox şirkət iştirak edib. Missiyalar çərçivəsində bir sıra məhsulların ixracına, o cümlədən meyvə-tərəvəz, şərab, meyvə şirələri, konservləşdirilmiş məhsullar, tikinti materialları, mebel və digər məhsulların ixracına dair razılaşmalar əldə olunub, müqavilələr bağlanılıb.

## İxracatçılar üçün yeni bazarlar

Milli ixrac brendimizin təşviqində tədbirlərdən biri də bazar araşdırmasıdır. Bazar araşdırması qeyri-neft məhsullarının ixracı üçün mövcud və yeni ixrac bazarlarına çıxış imkanlarının tədqiq olunaraq genişləndirilməsi məqsədilə təşkil edilən dəstək mexanizmidir. Araşdırma hədəf bazarlara uyğun olaraq ixracatçıların sifarişləri əsasında müsabiqə nəticəsində seçilmiş ixtisaslı yerli, eləcə də xarici hüquqi və ya fiziki şəxslər tərəfindən həyata keçirilir. İxracatçının məhsul üzrə istehsal və ixrac potensialı qənaətbəxş hesab olunduqda, onun hesabına dövlət tərəfindən bir bazar araşdırması üzrə 20 min manat vəsait ödənilir.

## Beynəlxalq sərgi və yarmarkalar

«Made in Azerbaijan» adı altında məhsulun tanıdılmasında və təşviq edilməsində ən mühüm dəstək tədbirlərindən biri beynəlxalq sərgi və yarmarkalarda fərdi şəkildə ölkə stendi ilə iştirakdır. Beynəlxalq sərgi və yarmarkalarda vahid ölkə stendi ilə iştirakla bağlı təşkilati işlər (sərgi və yarmarkanın keçiriləcəyi məkanda yerin icarəsi, stendin dizaynı, hazırlanması və quraşdırılması, məhsulların daşınması) təmin olunur və bütün xərclər dövlət büdcəsi hesabına qarşılanır. Ötən il vahid ölkə stendi mexanizmi çərçivəsində 19 milyon manatlıq müqavilələr imzalanıb və 6 milyon manatadək məhsul ixrac edilib. 2017-ci ildə ixrac missiyaları zamanı imzalanmış müqavilələr üzrə 2 milyon manatlıq məhsul ixrac olunub, il ərzində 5 beynəlxalq sərgidə və yarmarkada vahid ölkə stendi ilə iştirak nəzərdə tutulurdusa, bu ildən iştirak hüququ 2 dəfə artırılıb. Sahibkarların vahid ölkə stendi ilə təmsil olunduğu sərgilərin sayı 10-a çatdırılıb.

Beynəlxalq sərgi və yarmarkalarda fərdi qaydada iştirakın təmin olunması dövlətin dəstəyi ilə həyata keçirilir: hökumət ixtacatçının yarmarkadakı ümumi xərclərinin 30%-ni öz üzərinə götürür.

## Təbliğat və təşviqat

«Made in Azerbaijan» brendinin tanıdılmasında təbliğat və təşviqat amili də xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə xarici ölkələrin ictimai yerlərində və beynəlxalq KİV-də bununla bağlı təbliğat işləri aparılır. Bu istiqamətdə aparılan siyasətin nəticəsi olaraq, xarici ölkələrdə və beynəlxalq KİV-də yerli məhsullarımızın tanıdılması ilə bağlı reklamlar yerləşdirilib, «Azərbaycan şirələri» və «Azərbaycan meyvələri» sahəvi brendlər üzrə reklam çarxları hazırlanaraq yayımlanıb.

Dəstək tədbirlərindən biri də dövlət mülkiyyətində və ya səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər vasitəsilə «Made in Azerbaijan» brendinin xarici ölkələrdə təqdim edilməsi və geniş miqyasda tanıdılmasıdır. Milli brendimizin təşviqi hüquqi şəxslərin xarici ölkələrdə yerləşən nümayəndəlik və filialları vasitəsilə həyata keçirilir. Brendin təşviqi ilə bağlı çəkilən xərclər də dövlət tərəfindən ödənilir.

2018-ci ildə xarici ölkələrdə fəaliyyət göstərən mağazalarda və «Duty free»lərdə «Made in Azerbaijan» rəflərinin təşkili əsas planlardandır. Mağaza və «Duty free»lər seçilərkən onların istehlakçılar tərəfindən geniş tanınan mağazalar şəbəkəsinə aid olması, fəaliyyət göstərdikləri ərazilərdə sərnişin daşımalarının həcminin böyüklüyü və ərazinin beynəlxalq nəqliyyat qovşağı baxımından əhəmiyyəti nəzərə alınacaq. Bu dəstək tədbiri çərçivəsində yerlərin icarəsi və idarə olunması, məhsulların daşınması və gömrük rəsmiləşdirilməsi ilə bağlı bütün xərclər dövlət büdcəsindən ödəniləcək.

> “ Xarici tərəfdaşlarla milli ixracatçılar arasında əlaqələrin genişləndirilməsi istiqamətində əlavə tədbirlər görüləcək, ölkəmizə alıcı missiyaları təşkil ediləcək

## Ticarət evləri və nümayəndəliklər

Azərbaycanın ixrac potensialının təşviqi məqsədilə 2018-ci ildə xarici ölkələrdə ticarət evlərinin yaradılması, səfirlik və konsulluqlarda ticarət nümayəndələrinin təyin edilməsi ilə bağlı işlər intensivləşəcək. Artıq ötən il Belarusda Azərbaycan Ticarət Evi yaradılıb, Rusiyada da bu istiqamətdə işlər başa çatmaq üzrədir və tezliklə fəaliyyətə başlayacaq. Latviyada Azərbaycan Ticarət Evi qeydiyyata alınıb və bu il fəaliyyətə başlayacaq, ticarət evinin yaradılması istiqamətində isə işlər davam etdirilir.

Ticarət evləri Azərbaycan məhsullarının xaricə çıxışının asanlaşdırılması və təbliğ olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu, məhsulun heç bir vasitəçi olmadan ixracına imkan yaratdığına görə, onun maya dəyərinə, beynəlxalq bazarda rəqabətə davamlılığına bilavasitə təsir göstərir. Ticarət evlərinin uğurlu fəaliyyəti xarici iş adamlarını Azərbaycan məhsulları ilə yaxından tanış etməklə, ölkəmizə investisiyaların cəlb olunmasına, qarşılıqlı iqtisadi əlaqələrin genişlənməsinə, əməkdaşlığın yeni istiqamətlərinin müəyyən edilməsinə şərait yaradır.

Azərbaycanın xarici ölkələrdəki səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin təyin edilməsində məqsəd milli ixracatçıların iqtisadi-ticarət maraqlarının daha dolğun şəkildə qorunması, yerli məhsulların xarici ölkə bazarlarına çıxışının genişləndirilməsi, ixracın stimullaşdırılması, əcnəbi iş adamları ilə işgüzar əlaqələrin qurulmasında çevikliyin artırılmasıdır. 2017-ci ildə Rusiya, Çin və Birləşmiş Ərəb Əmirliklərində fəaliyyət göstərən Azərbaycanın səfirlik və konsulluqlarında ticarət nümayəndələri təyin edilib. 2018-ci ildə də bir neçə ölkədə ticarət nümayəndəsinin təyin olunması nəzərdə tutulur.

Azərbaycan məhsullarının yeni bazarlara çıxış imkanlarını genişləndirmək üçün xarici dövlətlərdə logistika mərkəzlərinin yaradılması planlaşdırılır. Bir müddət əvvəl Qazaxıstanın Aktau şəhərində istifadəyə verilmiş logistika mərkəzinin ardınca Rusiyanın Yekaterinburq şəhərində də bu cür ticarət təsisatının yaradılması ilə bağlı işlərə başlanılıb.

## «Azexport.az»ın fəaliyyəti

«Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqində və ixrac imkanlarının genişlənməsində, milli ixracatçıların xarici ölkələrdə tərəfdaş tapmasında «Azexport.az» saytının fəaliyyəti mühüm əhəmiyyət daşıyır. Sayt milli ixracatçılarımızın kənd təsərrüfatı, şərab, ərzaq, sənaye, inşaat məhsullarının xarici bazarlarda tanıdılması, yerləşdirilməsi və çıxışların əldə edilməsində, real müştərilərin tapılmasında əvəzolunmaz virtual ticarət platformasıdır. Beynəlxalq əhəmiyyətli resursa çevrilmiş portala qonşu ölkələr böyük maraq göstərir.

«Azexport» portalının nəzdindəki «bir pəncərə» Azərbaycan sahibkarları ilə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə transsərhəd elektron xidmətlərin real vaxt rejimində reallaşdırılmasına imkan yaradır. Beləliklə, az resurs sərf etməklə ixrac prosedurlarını daha sürətlə həyata keçirən sahibkarlar «bir pəncərə» prinsipi əsasında elektron ixracın imkanlarından yararlanırlar. Portal hazırda Azərbaycanda istehsal olunan məhsulların ixracını dəstəkləyir və «Alibaba.com», «eBay.com», «Wholesale», «Amazon», «All.biz» kimi dünya elektron ticarət şirkətləri ilə əməkdaşlıq edir.

**Elbrus CƏFƏRLİ**

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə**, ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Könüllü qanvermə aksiyası keçirilir



Ölkədə talassemiya xəstəliyindən əziyyət çəkən uşaqlara dəstək məqsədilə aprelin 2-də Vergilər Nazirliyində könüllü qanvermə aksiyasına başlanılıb. Sosial aksiya nazirliyin yerli strukturlarında aprelin 14-dək davam etdiriləcək.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Aprelin 5-dən 7-dək Bakı Ekspo Mərkəzində regionda turizm sənayesi üzrə aparıcı tədbirlərdən biri olan 17-ci Azərbaycan Beynəlxalq «Turizm və Səyahətlər» («AITF 2018») sərgisi keçiriləcək.

Bu ayın 26-27-də Çexiya Respublikasının paytaxtı Praqa şəhərində «Praqa işgüzar görüşləri» adlı maliyyə-iqtisadi forumuna Azərbaycanın işgüzar dairələri də dəvət olunublar.

Alman-Azərbaycan Xarici Ticarət Palatası bu il iyunun 5-də Bakıda növbəti Azərbaycan-Avropa İttifaqı biznes forumu keçirməyi planlaşdırır.

Cari ilin iyun ayında paytaxtımızda Azərbaycan Respublikası Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın iclasının keçirilməsi nəzərdə tutulur.

# Nağdsız hesablaşmalar iqtisadi inkişafı sürətləndirir

**2017-ci il yanvarın 1-dən «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib. Sənədə əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan ödəyicilər tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30.000 manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15.000 manatdan artıq olan hesablaşmalar üzrə aparılan ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.**

2017-ci ilin ötən 9 ayı ərzində aparılan qiymətləndirmələr göstərir ki, müəyyən problemlərə baxmayaraq, «Nağdsız hesablaşmalar haqqında» Qanunun qüvvəyə minməsi, eyni zamanda Vergi Məcəlləsində edilmiş müvafiq əlavə və dəyişikliklər nağdsız hesablaşmalara keçidlə bağlı öz töhfəsini verir. Qanunun icrası ölkədə nağdsız əməliyyatların həcminin artmasına, bankların maliyyə vəziyyətinin yaxşılaşmasına və likvidliyinin təmin edilməsinə, pul dövriyyəsinin tənzimlənməsinə, büdcə vəsaitlərinin xərclənməsində şəffaflığın təmin olunmasına, əməkhaqqının və digər ödənişlərin leqallaşmasına, nəticədə ölkənin beynəlxalq reytinqinin yüksəlməsinə səbəb olub.

Ölkə Prezidentinin 2017-ci il 17 may tarixli fərmanı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanuna əsasən, Vergi Məcəlləsində müvafiq dəyişikliklər edilib, bəzi anlayışlara aydınlıq gətirilib. Həmin Qanunun tələblərinin pozulmasına görə maliyyə sanksiyalarının tətbiqi ilə bağlı Vergi Məcəlləsinin 58.7-1-ci maddəsi yeni redaksiyada verilib və maliyyə sanksiyaları tətbiq edilən subyektlərin dairəsi konkretləşdirilib. Qanunun 3.4-cü maddəsinə əsasən, vergilərin, gömrük rüsumlarının, qanunla müəyyən edilmiş inzibati cərimələrin, maliyyə sanksiyalarının, faizlərin, sığorta ödənişlərinin, əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 yüz min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əmək haqlarının (o cümlədən: işəgötürən tərəfindən ödənilən, qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər), pensiya, təqaüd, maddi yardım və müavinətlərin (o cümlədən birdəfəlik müavinətlər), kompensasiya və təzminatların, stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsinin, faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olmayan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla), digər ayırmaların ödənilməsi və qaytarılmasının, dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsinin (xərclənməsinin), təhsil haqlarının ödənilməsinin, turizm agentlərinə ödəmələrin yalnız nağdsız qaydada həyata keçirilməsi nəzərdə tutulub.

İqtisadçı ekspert Samir Əliyevin sözlərinə görə, nağdsız əməliyyatların artması şəffaflığın əsas elementi olmaqla yanaşı, istənilən ölkənin maliyyə sabitliyi üçün də vacib mexanizmdir. Məhz nağdsız dövriyyələrin üstünlük təşkil etdiyi iqtisadiyyatlarda hökumət maliyyə axınlarına nəzarət edə bilir, iqtisadi proseslərə təsir imkanları çevik və yüksək olur: «Nağdsız ödənişlər sahəsindən yüksək nəticə əldə edən inkişaf etmiş ölkələr artıq nağd ödənişlərdən tam imtinaya hazırlaşırlar. Azərbaycanda son illər nağdsız hesablaşmaların payının artımı prioritet elan edilib».

Qeyd olunub ki, devalvasiya nəticəsində bank sektorunun üzləşdiyi problemlər nağdsız ödənişlərə də təsirsiz ötüşməyib. Bəzi bankların bağlanması, bəzilərinin isə filial şəbəkəsini azaltması fonunda nağdsız ödənişləri təmin edən infrastruktur elementlərinin (ATM və POS-terminallar) sayının azalması baş verib: «İlk devalvasiya tarixi - 21 fevrala qədər ATM-lərin sayı 2622 olduğu halda, 2017-ci ilin sonuna onların sayı 2431-ə, POS-terminallarda isə 77.041-dən 65.471-ə düşüb. Kredit kartlarının sayı isə bu müddətdə 2 dəfədən çox azalaraq 1319-dan 623-ə enib. Bu azalmaya maliyyə nəzarəti qurumunun problemli kreditlərin artımının qarşısını almaq məqsədilə tətbiq etdiyi sərtləşmə tədbirləri də təsir göstərib. Ancaq 2016-cı ilin sonunda qəbul edilmiş «Nağdsız hesablaşmalar haqqında» Qanun nağdsız ödənişlərin həcmini əhəmiyyətli dərəcədə artırıb. Məsələn, 2015-2016-cı illərdə nağdsız əməliyyatlar aparmağa imkan verən banklardakı cari hesabların sayı 12,7 milyondan 12,5 milyona düşdüyü halda, qanunun qüvvəyə minməsindən sonra - 2017-ci ildə belə hesabların sayı artaraq 13,3 milyona çatıb. Bu müddətdə ödəniş kartları vasitəsilə aparılan əməliyyatların həcmi 1 milyard 151 milyon manatdan 1 milyard 546 milyon manata yüksəlib. Digər tərəfdən, kart hesabındakı pulların nağdlaşdırılması tendensiyası da azalıb. 2015-ci ildə əhali ödəniş kartındakı pulun 87,5%-ni nağdlaşdırdığı halda, ötən ilin sonuna belə əməliyyatların payı 82%-ə qədər azalıb».

S.Əliyevin sözlərinə görə, nağdsız ödənişlərlə bağlı qanunvericilikdə edilmiş məhdudlaşdırıcı tədbirlər pul köçürmələrinə də təsir edib və banka daxil olmaqla köçürmələrin həcmi və payı artıb: «2014-2016-cı illər ərzində banka daxil olmaqla sürətli pul köçürmələrinin həcmi 1,63 milyard manatdan 1,46 milyard manata düşdüyü halda, bu göstərici ötən il 1,81 milyard manata yüksəlib. Bankdankənar köçürmələrin həcmi isə 618,4 milyon manatdan 627,7 milyon manata çatıb. Hökumət Ödəniş Portalı vasitəsilə ödəmələrin həcmi 2015-ci ildəki 1,4 milyard manatdan 2017-ci ilin sonuna 2,1 milyard manata yüksəlib. 2015-ci ildə ödəniş kartları vasitəsilə həyata keçirilən əməliyyatların həcmi bu müddətdə 13 dəfədən çox artıb və 2 milyon manatdan 26,5 milyon manata çatıb.

Bu müsbət tendensiyara baxmayaraq, bir sıra sahələrdə nağd ödənişlərin üstünlüyü hələ də qalmaqdadır. Hökumət Ödəniş Portalı vasitəsilə ödənişlərin əhəmiyyətli artımı müşahidə edilsə də, bu ödənişlərin 97%-dən çoxu terminallar vasitəsilə aparılır. Halbuki həmin ödənişləri evdən və ya ofisdən internet vasitəsilə də həyata keçirmək olar. Bunun üçün stimullaşdırıcı tədbirlərin görülməsinə ehtiyac var: məsələn, kredit şərtlərinə yenidən baxmaq, ödəniş kartları vasitəsilə verilən kreditlərin şərtlərini yüngülləşdirmək olar».

> Məhz nağdsız dövriyyələrin üstünlük təşkil etdiyi iqtisadiyyatlarda hökumət maliyyə axınlarına nəzarət edə bilir, iqtisadi proseslərə təsir imkanları çevik və yüksək olur

**FƏXRİYYƏ**

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Qeyri-neft sektorunda yüksəliş müşahidə olunur

***İqtisadi İslahatların Təhlili və Kommunikasiyalar Mərkəzinin departament rəhbəri Ramil Hüseyn*** bildirib ki, qeyri-neft sektoru üzrə ixracatda da artım prosesi davam edir: «Azərbaycanda makroiqtisadi sabitliyin təmin edilməsi, əlverişli biznes və investisiya mühitinin yaradılması və ixracın şaxələndirilməsi istiqamətində əsaslı tədbirlər həyata keçirilir. Ölkədə investisiya siyasətinə üstünlük verilməsi, iqtisadi sahəyə yönəldilən əsaslı vəsait qoyuluşunun artırılması da mühüm önəm daşıyır. Görülən tədbirlər nəticəsində ilin iki ayı ərzində qeyri-neft sektoru üzrə ixracat 37%-dək artıb. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə bu, çox ciddi göstəricidir. Ötən il ərzində ixracatda artım müşahidə olunmağa başlasa da, bu tendensiya cari ilin ilk iki ayında daha da sürətlənib».

İqtisadçıların proqnozlarına görə, 2018-ci ildə qeyri-neft sektorunun turizm, kənd təsərrüfatı, nəqliyyat, tikinti və sənaye sahələrində daha çox artım proqnozlaşdırılır.

> 2018-ci ilin ilk iki ayında qeyri-neft sektoru üzrə 2,3% inkişaf əldə olunub: sənaye sahəsində 8%, kənd təsərrüfatı üzrə 3,4%, bitkiçilikdə isə 40%-dən çox artım qeydə alınıb

***Beynəlxalq İqtisadiyyat Məktəbinin direktoru Anar Rzayev*** qeyd edibki, artıq Bakı-Tibilisi-Qars layihəsinin başa çatdırılması, Şimal-Cənub marşrutunun açılması nəticəsində təkcə nəqliyyat daşımalarının həcmi deyil, bütövlükdə xidmət ixracında, nəqliyyat idarəetməsində texnologiyaların idxalı baş verəcəkdir ki, bunun sayəsində də böyük artım gözlənilir. Ölkəyə turist axınının artması bu sektorunda inkişaf edən sahələr sırasında olacağı qaçılmazdır: «Qeyri-neft sektorunun inkişafı daxili bazardakı tələbatın ödənilməsinə, ölkənin ixrac imkanlarının genişləndirilməsinə xidmət edir. Bunun nəticəsində ölkədən xarici valyuta axını azalır, ixrac nəticəsində isə milyonlarla vəsait daxil olur. Bu da tədiyyə balansında profisitin əldə olunmasına, ölkənin maliyyə dayanıqlığının artmasına gətirib çıxarır».

**F. İKRAMQIZI**

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Dünya iqtisadiyyatının həssas nöqtəsi

Bütün dünya iqtisadiyyatının maraq və həyəcanla izlədiyi proseslərdən biri FED-in müntəzəm olaraq uçot dərəcəsi ilə bağlı verdiyi qərarlardır. FED - Federal Reserve System (Federal Ehtiyatlar Sistemi) ABŞ-ın Mərkəzi Bankının səlahiyyətində olan maliyyə strukturudur. Bu sistem birbaşa valyuta bazarına, eləcə də ABŞ dollarının həm emissiyasına, həm də uçot dərəcəsinin dəyişdirilməsinə məsul olan bir qurum kimi bazardakı proseslərlə bağlı birbaşa qərar vermək hüququna malikdir.

Bank üzrə mütəxəssis Yusif Abdullayev bildirib ki, uçot dərəcəsi yenidən maliyyələşdirmə aləti kimi, mərkəzi bankın kommersiya banklarını pul kütləsi ilə təmin etməsi anlayışına gəlir: «Daha sadə dillə desək, mərkəzi bank kommersiya banklarına və digər maliyyə təşkilatlarına kredit verir, onlar isə həm adi vətəndaşları (fiziki şəxsləri), həm də müxtəlif şirkət və təşkilatları (hüquqi şəxsləri) kreditlə təmin edir. Uçot dərəcəsi artdığı zaman ölkədəki kommersiya banklarının vətəndaşlara və hüquqi şəxslərə verdiyi kreditlərin faiz dərəcələri artır. Nəticədə daha az şəxs kredit götürür, iqtisadiyyatda pulun həcmi azalır. Bu isə inflyasiyanın səviyyəsinin aşağı düşməsinə səbəb olsa da, son nəticədə iqtisadi artımın azalmasına səbəb olur. Uçot dərəcəsi azaldıqda isə kommersiya banklarının faiz dərəcələri aşağı düşür və bu, kredit götürmək imkanlarını artırır. Hüquqi və fiziki şəxslərin rahat kredit götürməsi pulun həcminin çoxalmasına gətirir və inflyasiyanın dərəcəsi artır». Mütəxəssisin sözlərinə görə, uçot dərəcəsinin artması milli valyutanın digər valyutalar qarşısında dəyər qazanmasına gətirib çıxarır. Buna misal olaraq, Azərbaycan Mərkəzi Bankının son dövrlərdəki uçot siyasətini göstərə bilərik ki, bu da manatın sabit qalmasına yönəlmiş siyasətdir.

İqtisadçı ekspert Vüqar Bayramov mövzu ilə bağlı qeyd edib ki, FED ABŞ dollarının həm emissiyasına, həm də uçot dərəcəsinin dəyişdirilməsinə məsul olan bir qurum kimi, bazardakı proseslərlə bağlı birbaşa qərar vermək hüququna malikdir. FED-in emissiya və digər istiqamətlərdə qərarları birbaşa qlobal valyuta bazarına təsir göstərir. Bu sistemin hüquqi statusu xüsusi qanunla tənzimlənir. Qanuna görə, FED xüsusi maliyyə təsisatı kimi həm müstəqil hüquqi şəxsdir, həm də ictimai xarakterli dövlət nümayəndəsidir: «Bu gün dünyanın bir sıra aparıcı banklarında uçot dərəcəsi sıfırdan aşağıdır. Bəzi ölkələr uçot dərəcəsini aşağı saxlamaqla milli valyutanın möhkəmlənməsinin qarşısını almağa çalışırlar. ABŞ-da uçot dərəcəsinin artırılması dollarla ödənişlərin, yəni dollara verilən faizin artırılması deməkdir. Uçot dərəcəsi nə qədər yüksək olursa, həmin valyutanın gətirdiyi gəlir də bir o qədər çox olur. Uçot dərəcəsinin artırılması nəticədə dolların məzənnəsinə və mövqeyinə birbaşa təsir göstərir və dolları möhkəmləndirən və məzənnəsini zəiflədən əsas şərtlərdən biri kimi çıxış edir. Uçot dərəcəsinin bu kontekstdən artırılması yalnız dolların möhkəmləndirilməsinə xidmət etmir, eyni zamanda digər ölkələrin valyutasına birbaşa təsir göstərir. Nəzərə alsaq ki, Azərbaycanda dollara kifayət qədər yüksək tələbat var, deməli, FED-in qərarları birbaşa bizim iqtisadiyyatdan da təsirsiz ötüşmür».

Ekspert onu da vurğulayıb ki, FED-in uçot dərəcələrinin dəyişdirilməsi digər ölkələrin məzənnə siyasətinə də bilavasitə təsir göstərir: FED-in qərarları Azərbaycanda məzənnə siyasətinə 2014, 2015 və 2016-cı illərdə daha çox təsir göstərirdi. Əks-dollarlaşma prosesinin başlanması həmin qərarların təsiri ilə müəyyən qədər azalıb. Bununla belə, FED-in həyata keçirdiyi tədbirlərin Azərbaycanın valyuta bazarına psixoloji təsirləri qalmaqdadır. Ümumiyyətlə, bu qərarlar bütün inkişaf etməkdə olan ölkələrin maliyyə və valyuta bazarlarına psixoloji təsir göstərir».

Mütəxəssislərin fikrincə, Azərbaycan Mərkəzi Bankı məzənnə və uçot dərəcələrinin artırılmasında çevikliyi və aktivliyi davam etdirməli, həm FED-in, həm də Avropa Mərkəzi Bankının uçot dərəcələrinə uyğun olaraq öz məzənnə və dərəcə siyasətini uyğunlaşdırmalıdır.

**FƏXRİYYƏ**

# «Banklar haqqında» Qanunda dəyişiklik edilib

Aprelin 3-də Milli Məclisin plenar iclasının gündəliyinə «Banklar haqqında» Qanun daxil edilib. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, banklar hər bir borcalan haqqında məlumatı maliyyə bazarlarına nəzarət orqanının müəyyən etdiyi qaydada maliyyə bazarlarına nəzarət orqanında yaradılan mərkəzləşdirilmiş kredit reyestrinə təqdim etməlidir. Mərkəzləşdirilmiş kredit reyestrində toplanan məlumatlara bank sirrinin «Banklar haqqında» Qanunla müəyyən olunmuş qorunması qaydaları şamil edilir.

Komitə sədri diqqətə çatdırıb ki, banklar tərəfindən borcalanlar barədə məlumatın kredit bürosuna təqdim edilməsi və kredit bürosundan alınması qaydası «Kredit büroları haqqında» Qanunla tənzimlənir. «Banklar haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi «Kredit büroları haqqında» 2016-cı il 28 oktyabr tarixli Qanunun tətbiqi ilə əlaqədar hazırlanıb. Layihə banklar tərəfindən borcalanlar haqqında məlumatın mərkəzləşdirilmiş kredit reyestrinə verilməsi mexanizmini dəqiqləşdirmək, eləcə də reyestrdə toplanan məlumatların qorunmasını təmin etmək məqsədi daşıyır.

Deputatların fikir və təklifləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

# Kiber təhlükəsizlik sahəsində əməkdaşlıq

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti və «Microsoft Azərbaycan» arasında kibertəhlükəsizlik sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Hazırda dünyada kiberinsidentlərin sayı sürətlə artır. Həyata keçirilən monitorinq tədbirləri və aparılan təhlillər nəticəsində müəyyən olunub ki, ziyanverici proqramlar, fişinq hücumları, istifadəçilərin elektron poçt və sosial şəbəkə hesablarının ələ keçirilməsi, DoS/DDoS hücumlar ölkəmizdə də internet istifadəçilərinin qarşılaşdığı əsas təhlükələrdir. Anlaşma Memorandumu bu təhdidlərin və təhlükələrin qarşısının alınması, kiberhücumlarla effektiv mübarizə aparılması istiqamətində kibertəhlükəsizlik sahəsində təcrübə mübadiləsini həyata keçirmək, əməkdaşlıq əlaqələrini genişləndirmək məqsədilə imzalanıb.

Memorandum kibertəhlükəsizlik sahəsində «Microsoft»un xidmət və texnologiyalarından istifadə, bilik və təcrübə mübadiləsi, tədqiqatların aparılması üzrə əməkdaşlıq əlaqələrinin qurulması dövlət sektorunda lisenziyalı proqram təminatının təbliği kimi məsələləri əhatə edir.

Xidmət «FİRST», «Tİ», «CERT CC», «CAMP», «Anti-phishing Working Group (APWG)» kimi beynəlxalq qurumlarla sıx əməkdaşlıq edir.

«Kiberhücumlar nəinki təşkilat və şirkətlərə maddi zərər vurur, eyni zamanda, ölkə iqtisadiyyatına mənfi təsir göstərir. Tərəflər arasında imzalanan bu sənəd Azərbaycanda kibərməkanın təhlükəsizliyinin təmin edilməsində və ümumiyyətlə, ölkədə informasiya texnologiyaları sahəsinin inkişafında olduqca vacib addımdır və mühüm rol oynayacaq. Kibertəhlükəsizlik sahəsində «Microsoft»un kifayət qədər təcrübəsi, həlləri və xidmətləri mövcuddur ki, Elektron Təhlükəsizlik Xidməti ilə onları bölüşməyə hazırıq», - deyə «Microsoft Azərbaycan» şirkətinin baş direktoru Sərxan Həşimov bildirib.

# Təhlükəli qida məhsulları ilə bağlı xəbərdarlıq

Türkiyənin Qida, Əkinçilik və Heyvandarlıq Nazirliyinin (Gıda, Tarım ve Hayvancılık Bakanlığı) ölkə ərazisində istehsal olunan qida məhsulları ilə bağlı apardığı araşdırmanın nəticələrinə əsasən, 173 istehsalçıya məxsus 282 adda məhsulda tərkibində insan həyatı və sağlamlığı üçün təhlükə yarada bilən, etiketlənməsində qeyd olunmayan qida və qida əlavələri aşkarlanıb.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi həmin məhsulların siyahısına baxış keçirib və Türkiyədən Azərbaycana ixracı ehtimal olunan 119 adda istehsalçıya məxsus məhsulların siyahısını hazırlayıb. Siyahıda qeyd edilən qida məhsullarının 17 növü ət və ət məhsullarına, 40 növü süd və süd məhsullarına,15 növü bal məhsullarına, 40 növü bitki yağlarına, 1 növü çay məhsuluna, 1 növü ədviyyat məhsuluna, 4 növü şokolad məhsuluna, 4 növü spirtsiz içkilərə, 1 növü enerji içkilərinə, 13 növü isə qida əlavələrinə aiddir.

Agentlik yaranmış vəziyyətlə əlaqədar Dövlət Gömrük Komitəsinə, Səhiyyə Nazirliyinin Respublika Sanitariya-Karantin Müfəttişliyinə, Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinə və Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinə müvafiq sorğular göndərib. Agentlik, həmçinin, əhalini siyahıda yer alan qida məhsullarını almamağa çağırır.

# Sosial mənzillərdə işlər sürətlə gedir

Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən paytaxtın Yasamal rayonunda inşa edilən 29 binadan 19-da tikinti işləri tam başa çatıb və mənzillərin təmirinə başlanıb. MİDA-nın mətbuat katibi Diana Dadaşovanın sözlərinə görə, bütün mənzillərin təmirində yüksək keyfiyyətli yerli tikinti materiallarından istifadə olunmaqla ciddi nəzarət edilir.

Qeyd olunub ki, güzəştli sosial mənzillərlə bağlı 8 minə qədər vətəndaş müraciət edib. Mənzillərin satışı elan edildikdən sonra vətəndaşlar şəxsi kabinetlərinə girərək istədikləri mənzili seçə biləcəklər. Hövsan Kompleksində isə 3 min mənzilin tikintisi nəzərdə tutulub. Hazırda orada da tikinti işləri aparılır.

## 2018-ci ilin aprel ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2018-ci ilin mart ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **aprel ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlakın** təqdim edilməsi üzrə sadələşdirilmiş verginin bəyannaməsi cari ilin **aprel ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2018-ci ilin 1-ci rübünə görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Sadələşdirilmiş verginin bəyannaməsini,
- Ödəmə mənbəyində tutulan verginin bəyannaməsini

cari ilin **aprel ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və rüb üzrə hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- Cari ilin 1-ci rübü üzrə muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan verginin bəyannaməsi (ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri istisna olmaqla) **aprel ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməli və mart ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.
- Xüsusi notariuslar gəlir vergisi bəyannaməsini

cari ilin **aprel ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və mart ayı üzrə hesablanmış gəlir vergisini həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- Dövlər rüsumu haqqında hesabat

cari ilin **aprel ayının 20-dək** vergi orqanına təqdim edilməlidir (notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülür).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin aprel və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin aprel və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

- Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
- Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
- Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
- Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# ABŞ-da kriptovalyuta əməliyyatlarına görə bəyannamə tələb olunur

Bəyannamələrin verilməsi ilə bağlı son tarix ərəfəsində ABŞ Vergi Xidməti vergi ödəyicilərinə kriptovalyuta əməliyyatları nəticəsində əldə etdikləri gəlirlər barədə məlumat verməyin zəruriliyini xatırlatmışdır.

Xəbərdarlıq bildirişində göstərilmişdir ki, bu gəlirlər barədə məlumatın təqdim edilməməsi ağır nəticələrə səbəb ola bilər.

Vergi Xidmətinin normativ tələblərinə uyğun olaraq, ABŞ-da rəqəmsal valyutalar federal vergitutma məqsədləri ilə əmlak obyektləri qismində qiymətləndirilir. Kriptovalyuta üçün eynilə əmlak aktivləri üçün tətbiq olunan qaydalar tətbiq edilir.

Hazırda dünyada 1500-dən artıq kriptovalyuta mövcuddur. ABŞ-ın Vergi Xidmətində qeyd edildiyi kimi, kriptovalyutalar anonim təbiətli olduğuna görə, vergi ödəyicilərinin çoxu bu aktivlərdən əldə etdikləri gəlirləri gizlətməyə cəhd göstərirlər. ABŞ qanunlarına əsasən, vergidən yayınmanın «qiyməti» vətəndaşa beş ilə qədər həbs cəzasına və ya 250 min dollar pul vəsaitinə başa gələ bilər.

# ƏDV dərəcəsi artırılıb

2018-ci il aprel ayının 1-dən Cənubi Afrika hökuməti əlavə dəyər vergisinin dərəcəsini 14 faizdən 15 faizə qaldırmaq barədə qərar vermişdir. Ölkənin vergi xidməti bununla əlaqədar «ƏDV dərəcəsinin artırılması üzrə təlimat» hazırlayaraq nəşr etmişdir.

Təlimatda tranzaksiyalar üçün vergitutmanın müəyyənləşdirilməsinin qaydalarına da yer verilmişdir. Aprelin 1-dən həyata keçirilən tranzaksiyalardan xüsusi tədarük qaydası və ya konkret tarif qaydası tətbiq olunmadığı halda, ƏDV yeni dərəcə ilə tutulmalıdır.Bundan əlavə, təlimatda digər məsələlərlə əlaqəli qaydalar da verilmişdir:

- qiymətləndirmə;
- 14 faizlik ƏDV də daxil olmaqla, müqavilə şərtləri;
- hesablaşma və uçotla bağlı müəssisələrin
- sistemlərində aparılan dəyişikliklər;
- idxal edilən mallarla əlaqəli konkret qaydalar;
- ƏDV formalarında edilmiş dəyişikliklər və s.

# ABŞ-ın idxal rüsumu Rusiya metal istehsalçılarına ciddi zərbə vuracaq

«Sberbank»ın prezidenti və idarə heyətinin sədri German Qref demişdir ki, analitiklərin ilkin hesablamalarına görə, ABŞ-da metalların idxalı üçün tətbiq olunan rüsumlar sayəsində Rusiyanın metal istehsalçıları ildə 300 milyon dollar vəsait itkisi ilə üzləşəcəklər. Əsas zərbə ölkənin alüminium sənayesini tutacaq, hazırkı təxminlərə əsasən, bu sahənin itkiləri 200 milyon dollara yaxın olacaq. Poladtökmə sənayesindəki itkilər isə nisbətən az olacaq.

Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyinin qiymətləndirməsi isə daha bədbin olmuşdur. Nazirliyin açıqlamasında qeyd edilmişdir ki, ilkin hesablamalara görə, yaxın gələcəkdə poladtökmə sənayesinin 2 milyard, alüminium sənayesinin isə 1 milyard dollar itki ilə üzləşmək təhlükəsi var. Sənaye və ticarət nazirinin müavini Viktor Yevtuxov «Rossiya 24» televiziya kanalına müsahibəsində qeyd etmişdir ki, hökumət buna qarşı cavab tədbirləri hazırlayır. «Amerika mallarının idxalı ilə bağlı məhdudlaşdırma tədbirləri görüləcək. Mənim fikrimcə, digər ölkələr də bu yolla getməlidirlər», - nazir müavini bildirmişdir.

# Çin hökuməti ölkədə yeni vergi islahatları aparılacağını açıqlayıb

Çin Xalq Respublikasının yeni maliyyə naziri Lyu Kun ölkənin vergi sistemində islahatlar aparılacağını bəyan etmişdir. Nəzərdə tutulan islahatlara əlavə dəyər vergisinin dərəcəsinin aşağı salınması da aiddir. O, qeyd etmişdir ki, belə bir addımın atılması - ƏDV-nin dərəcəsinin azaldılması bu il istehsalla məşğul olan şirkətlərə və təchizatçılara fayda gətirəcək. Nazir Çində gəlir vergisi sitemində nəzərdə tutulan islahatlar barədə də danışmışdır. Onun sözlərinə görə, uşaqların təhsilinə və səhiyyə sisteminə ayrılan xərclərlə bağlı vergi güzəştlərinə yenidən baxılacaq.

Bildirilmişdir ki, vergi yükünün azaldılması 2013-cü ildən başlanmış vergi islahatlarının davamıdır. O vaxt hökumət ölkənin rəqabət qabiliyyətinin yüksəldilməsi və sahibkarlığın inkişafına dəstək məqsədilə vergi və yığımların məbləğini əsaslı şəkildə - 3 trilyon yuandan (1 yuan=27 qəpik) artıq aşağı salmışdı.

# Daha bir məşhur həbsxanaya düşdü

Dünyada DMX adı ilə tanınmış (əsl adı Erl Simmonsdur) amerikalı reper və aktyor 1,7 milyon dollar məbləğində vergini dövlətdən gizlətdiyini etiraf edəndən sonra ona bir il həbs cəzası kəsilmişdir. Əvvəlcə prokurorluq reperə beş il həbs cəzası tələb etsə də, məhkəmə prosesinin gedişində hakim bu tələbi həddindən artıq sərt adlandırmışdı: «O, yaxşı insandır, lakin törətdiyi cinayət cəzasız qalmamalıdır».

İstintaq orqanları DMX-nin 2000-ci ildən bu yana vergi ödəmədiyini, gəlirlərinin məbləğini müxtəlif yollarla vergi orqanlarından gizlətdiyini aşkar etmişdir. 2011 və 2012-ci illərdə o, bəyannamələrdə gəlirlərinin məbləğini göstərməmişdir. İstintaq orqanlarının məlumatına görə, bu illərdə reperin gəlirləri, müvafiq olaraq, 353 min və 542 min dollar təşkil etmişdir.

# Avrokomissiya





## Bolqarıstandan və Almaniyadan ƏDV qanununu dəyişməyi tələb edir

Avropa Komissiyasının Bolqarıstan və Almaniya hökumətlərinə göndərdiyi rəsmi məktubda əlavə dəyər vergisini (ƏDV) tənzimləyən qanun layihələrində düzəliş etmək xahiş olunmuşdur.

Komissiya Bolqarıstan hökumətindən tələb etmişdir ki, yanacaq ticarəti, eləcə də öz aktivlərindən qeyri-kənd təsərrüfatı məqsədləri ilə istifadə edən şirkətlər üçün ƏDV ilə bağlı qanunçuluqda müvafiq dəyişiklik etmək lazımdır. Komissiyanın istinad etdiyi mənbələrə görə, Bolqarıstanda yanacaq ticarəti aparan iri olmayan şirkətlər hazırda öz veksellərini ödəyə bilmək gücündə olduqlarına zəmanət vermək üçün əvvəlcədən «izafi» məbləğdə pul təqdim etməlidirlər. İri şirkətlərdən isə tələb olunan apardıqları tranzaksiyalar üçün hesablanılan ƏDV məbləğinə bərabər məbləğə zəmanət vermək tələb edilir.

Komissiya hesab edir ki, bu qanun layihəsi ƏDV-yə aid normativ direktivlə, eləcə də Avropa İttifaqının əsas qanunlar məcəlləsinə uyğun olaraq biznes aparmaq azadlığı ilə bir araya sığmır. Bolqarıstanla bağlı dəyişdirilməsi tələb olunan qanun biznes aktivlərindən özəl və ya qeyri-kommersiya məqsədləri üçün istidafə edildikdə, həmçinin biznes aktivləri başqa bir üzv dövlətə ötürüldükdə ƏDV-nin necə hesablanılması ilə bağlıdır.

Almaniyaya aid istehsal pozuntusu fermerlər üçün ƏDV-nin sabit dərəcəsi sxeminin tətbiqindən kənarda qalması ilə bağlıdır. Vahid tarif sxemi fermerlər üçün alternativ ƏDV qeydiyyatıdır. Sabit vergi dərəcəsi ilə fermer kimi qeydiyyata alınanlar ƏDV ödəyicisi hesab olunmurlar, yaxud gəlirləri barədə məlumat təqdim etmirlər və buna görə də onlar əlavə dəyər vergisini qaytara bilmirlər. Buna baxmayaraq, onlar ƏDV ödəyicisi kimi qeydiyyata alınmış müştərilərə mal və xidmətlər satarkən sabit «əlavəni» çıxa və ya tuta bilirlər. Vahid dərəcə fermerlərə satınalmalar üçün vergidə itirdiklərinin əvəzinin ödənilməsi üçün verilir. Bu sxemdən kənd təsərrüfatına aid olmayan fəaliyyətləri ƏDV qeydiyyatı həddindən aşağı olan fermerlərin istifadəsinə icazə verilir.

Bu sxem ƏDV ilə bağlı normativ hüquqi tələblərə əməl edərkən inzibati çətinliklərlə qarşılaşa biləcək fermerlərin istifadə etməsi üçün nəzərdə tutulmuşdur. Bununla belə, Avropa Komissiyasının rəyinə əsasən, Almaniya bu cür çətinliklərlə rastlaşmayan iri ferma sahibləri də daxil olmaqla bütün fermerlər üçün, onların öz seçimlərinə əsasən, bu sxemi mərhələli şəkildə tətbiq edəcək. Almaniyanın Ali Auditorlar İnstitutunun məlimatlarına əsaslanan Avropa Komissiyasından bildirilmişdir ki, sabit vergi dərəcələri sxeminin bu cür tətbiqi ödənilmiş ƏDV-nin qarşılığı olaraq daha artıq kompensasiyanın əldə edilməsinə gətirib çıxaracaq. Komissiya tərəfindən qeyd edilmişdir ki, Almaniyada ƏDV-nin qanundankənar tətbiqi «daxili bazardakı rəqabətdə ciddi uyğunsuzluqlar yaradacaq».

Avropa İttifaqına üzv olan hər iki dövlətə - həm Bolqarıstana, həm də Almaniyaya komissiyanın iradlarına cavab vermək üçün iki ay vaxt verilmişdir.

# BVF Estoniyanın vergi islahatlarına müsbət qiymət verib

Beynəlxalq Valyuta Fondu (BVF) Estoniya iqtisadiyyatı ilə bağlı son hesabatında ölkənin vergi sisteminə «nisbətən sadə və şəffaf» qiymət verərək, aparılan islahatları müsbət dəyərləndirmişdir. BVF Estoniyaya təşkil etdiyi missiyanın yekun bəyanatında burada vergi rejiminin effektiv olduğunu bildirmişdir və ölkənin vergi çıxılmalarının məhdudlaşdırılması ilə bağlı mövqeyinə yüksək qiymət vermişdir. «Bu mövqe indiyədək Estoniya iqtisadiyyatına yaxşı xidmət etmişdir», - BVF-nin hesabatında bildirilmişdir.

Fond Estoniyaya gəlirləri aşağı olan işçilər üçün vergi yükünün aşağı salınmasını tövsiyə etmişdir: bu, işçi qüvvəsinin cəlb olunmasına şərait yarada bilər.

Bunlarla yanaşı, Estoniyaya son vergi islahatlarından sonra qəbul edilmiş bir sıra dəyişiklikləri ləğv etmək təkidlə təklif edilmişdir. BVF-nin rəyinə əsasən: «vergi siyasətindəki çevikliyin vergi dərəcələrinə təsiri minimum olmalıdır».

Hesabatda hökumətin vergi rejimindəki dəyişiklikləri dünya iqtisadiyyatındakı yeni reallıqlara necə uyğunlaşdırmalı olduğuna da xüsusi diqqət yetirilmişdir: «Şəhər rayonlarında torpaq vergisinin bazar qiymətinə əsaslanan əmlak vergisi ilə əvəz edilməsi məsələsinə baxmaq olar. Bunun nəticəsində işçi qüvvəsinin vergi yükünün azaldılmasına imkan yarana bilər ki, Avropa İttifaqına keçən işçi qüvvəsinin sayı azalsın».

# krossvord



**Yuxarıdan aşağı:** 1.Səudiyyə Ərəbistanında şəhər. Məhəmməd peyğəmbərin qəbri bu şəhərdədir; 2.Yaşına görə boyu balaca olan insanlara deyilir; 3.Mahir qaboy ustası, «Şöhrət» ordenli Azərbaycanın xalq artistinin adı; 4.Dəqiq elmlərdə hansısa halın faktlarının təsviri; 5.Erkən İntibahın ilk nümayəndəsi, Cotto ənənələrini qəbul etmiş, xətti perspektiv prinsiplərindən istifadə edən florensiyalı boyakar (rəssam); 6.Sovet və Rusiya teatr və kino aktyoru, teatr rejissoru, pedaqoq, SSRİ xalq artistinin soyadı. «Baharın on yeddi anı», «Qorxma, mən səninləyəm» filmlərində çəkilib; 7.Kart oyununda termin; 13.Rusiyada çay; 15.Dünya dinlərindən biri; 16.Ovqatın yüksək səviyyəsi, cuşə gəlmək; 17.Tanınmış fransız filoloq, şair, tərcüməçi; 18.Quranda 55-ci surə; 20.Skandinav mifologiyasında tanrılardan biri; 21.Məşhur Azərbaycan yazıçısı, «Xəyyam» pyesinin, «Ana» dram əsərinin müəllifinin adı.

**Soldan sağa:** 1.Azərbaycan nağıllarında uşaqların çox sevdiyi cəsur, qəhrəman, xeyrxah personaj; 8.İki seçim (adətən, arzu olunmayan) arasında qalmaq; 9.Fosfororqanik zəhərləyici maddə. Bu, iysiz və rəngsiz qaz kimyəvi silahlar qrupuna daxildir; 10.Asiyada dövlət; 11.Astara rayonunda qəsəbə; 12.Qorxu, dəhşət (rusca); 14.Müəyyən qrup və şəxslərin, korporativ dairələrin, eləcə də dövlətlərin maraqlarını təmin edən təşkilatlanmış qurum; 19.Avstraliyanın gerbində təsvir olunmuş heyvanlardan biri; 21.Səudiyyə Ərəbistanının ikinci böyük şəhəri və maliyyə paytaxtı; 22.Görkəmli Amerika yazıçısı, jurnalisti və ictimai xadimi. «Tom Soyerin macəraları», «Şahzadə və dilənçi» və s. əsərlərin müəllifi; 23.Damar və arteriyaların deformasiyası nəticəsində əmələ gələn xəstəlik; 24.Qərbi Azərbaycanın Göyçə mahalında kənd; 25.Parlament tərəfindən insan hüquq və azadlıqlarının müdafiəçisi kimi səlahiyyət verilən, dövlət funksiyalarının daşıyıcısı olan vəzifəli şəxslərin üzərində birbaşa parlament nəzarətini həyata keçirən, etibarlı şəxs;



*Azərbaycan nağılları personajlarından biri*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Maputu; 2.Horavar; 3.Altun; 4.Defekt; 5.Reaktor; 6.Viola; 7.Qranit; 13.Saks; 15.Kadastr; 16.Zvezda; 17.Ananas; 18.Omonim; 20.Tayqa; 21.Kredo. **Soldan sağa:** 1.Mehmandarov *(Səməd bəy)*; 8.Paratif; 9.Ayova; 10.Tavan; 11.Kattani; 12.Krass; 14.Triko; 19.Vatikan; 21.Kadam; 22.Ziya *(Bünyadov)*; 23.Andersen *(Hans Xristian)*; 24.APA ; 25.Kosmodrom.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Azərbaycan güləşçiləri Türkiyədən iyirmi medalla döndülər

**Türkiyənin Gebze şəhərində yeniyetmələr arasında sərbəst, yunan-Roma və qadın güləşi üzrə 21-ci «Zəfər Kuboku» beynəlxalq turniri başa çatıb. Dörd gün davam edən yarışın yekununda sərbəst, yunan-Roma və qadın güləşçilərimiz ümumilikdə 7 qızıl, 5 gümüş və 8 bürünc medal olmaqla 20 medal qazanıblar.**



Komandamızın üzvləri Əlihəsən Əmirli (48 kq), Əbülfəz Nəsirov (55 kq), Turan Bayramov (65 kq) qızıl, Fuad Mayılov (80 kq), İslam Abuyev (110 kq) gümüş, Riyad Aslanov (51 kq) və Sabir Cəfərov (60 kq) bürünc medalla yarışları başa vurublar. Bununla da sərbəst güləş yığmamız komanda hesabında ikinci olub. Türkiyə birinci, Rusiya yığması isə üçüncü nəticə göstərib. Qadın güləşçilərimiz - Birgül Sultanova (57 kq), Jalə Əliyeva (61 kq) Nigar Mirzəzadə (65 kq) birinci, Şahanə Nəzərova (43 kq) ikinci, Ayşən Yusifova (46 kq), Sevinc Əhədova (49 kq), Elnurə Məmmədova (61 kq) isə üçüncü olublar. Yeniyetmə qızlarımız da komanda hesabında Türkiyədən sonra ikinci pillədə qərarlaşıblar. Rumıniya güləşçiləri isə üçüncü yeri tutublar.

Yunan-Roma güləşçilərinin yarışlarında Həzrət Cəfərov (51 kq) qızıl, Qurban Qurbanov (45 kq), Röyal Mirzəliyev (51 kq) gümüş, Murad Abbasov (55 kq), Ruslan Hədisov (65 kq) və Laçın Vəliyev (92 kq) bürünc medalla Vətənə dönüblər. Yunan-Roma güləşçilərimiz isə komanda hesabında üçüncü yeri tutublar. Türkiyə birinci, Gürcüstan komandası ikinci olub.

Qeyd edək ki, «Zəfər Kuboku» beynəlxalq turnirində qazanılmış nəticə aprelin 23-29-da Kiyevdə keçiriləcək Avropa çempionatı öncəsi məşqçilər korpusunun yığma komanda üzvlərini sınaqdan keçirməsi və heyətin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyətə malik olub. Bu ilin oktyabrında Argentinanın paytaxtı Buenos-Ayres şəhərində keçiriləcək yeniyetmələrin 3-cü Olimpiya Oyunlarına lisenziyalar Avropa çempionatında qazanılacaq. Belə ki, yunan-Roma güləşi üzrə 45, 51, 60, 71, 92, sərbəst güləş üzrə 48, 55, 65, 80, 110, qadın güləşi üzrə 43, 49, 57, 65 və 73 kiloqram çəki dərəcələrində çempion olacaq güləşçilər Olimpiya Oyunlarına birbaşa vəsiqə qazanacaqlar. Reqlamentə əsasən qazanılmış lisenziyaların sayından asılı olmayaraq, hər bir ölkə hər bir güləş növü üzrə maksimum 2 idmançı ilə təmsil oluna bilər.

# Qrossmeysterimiz mövqeyini qoruyur



Berlində təşkil olunan İddiaçılar Turnirindən sonra FIDE şahmatçıların yeni reytinq cədvəlini açıqlayıb. Hesabında 2814 xal olan Şəhriyar Məmmədyarov ikinci pillədəki mövqeyini qoruyub. Xatırladaq ki, Azərbaycan qrossmeysteri Berlindəki turniri ikinci yerdə başa vurub. Norveçli Maqnus Karlsen 2843 xalla reytinq cədvəlində liderliyini davam etdirir. İddiaçılar Turnirinin qalibi, ABŞ şahmatçısı Fabiano Karuana 2804 xalla üçüncüdür. Qadın şahmatçıların reytinq cədvəlinə Çin təmsilçisi Xou İfan 2657 xalla başçılıq edir.

# Yeddi yaşlı azərbaycanlı gimnast uğurlarını davam etdirir

Budapeştdə bədii gimnastika üzrə VI Beynəlxalq «Bahar kuboku - 2018» turniri keçirilib. Turnirdə 17 ölkədən 43 idman klubunun heyətində 380 gimnast mübarizə aparıb. Yeddi yaşlı həmyerlimiz Mina Abbasova çoxnövçülük yarışında yalnız ukraynalı rəqibindən geri qalaraq ikinci yeri tutub. O, həmçinin alətsiz və halqa ilə hərəkətlərdə də ikinci pillədə qərarlaşıb. Beləliklə, balaca idmançımız turnirdə üç gümüş medal qazanmağa müvəffəq olub. Yarışın qalibləri «Rio-2016» Olimpiadasının və birinci Avropa Oyunlarının qalibi, yeddiqat dünya, dördqat Avropa çempionu Marqarita Mamunun və üçqat Asiya çempionu Yelizaveta Nazarenkonun ustad dərslərində iştirak hüququ qazanıblar.



Beş yaşından başlayaraq iştirak etdiyi bütün beynəlxalq yarışlarda parlaq çıxışı ilə fərqlənən Mina Abbasova iki ildən çoxdur Budapeştdə fəaliyyət göstərən «Rus RG Sport» klubunda gimnastika ilə məşğul olur. O, Macarıstandan başqa, Almaniya, Serbiya, Xorvatiya, İtaliya və Sloveniyada keçirilən beynəlxalq turnirlərdə də fəxri kürsünün yüksək pillələrinə qalxaraq qızıl və gümüş medallara sahib olub. Həmin yarışlarda Mina ailəsinin hazırda müvəqqəti olaraq yaşadığı ölkəni - Macarıstanı təmsil etsə də, ən böyük arzusu iştirak etdiyi bütün gimnastika turnirlərində Azərbaycan bayrağını dalğalandırmaqdır.

# II Avropa Oyunlarına hazırlıq gedir

2019-cu il iyunun 21-dən 30-dək Belarusun paytaxtında keçiriləcək II Avropa Oyunlarında iştirak edəcək ölkələrdən on iki Milli Olimpiya Komitəsinin nümayəndələri Minskdə toplaşıblar. Oyunların Təşkilat Komitəsi Azərbaycan, Belarus, Belçika, Danimarka, Böyük Britaniya, Macarıstan, Latviya, Lüksemburq, Niderland, Rumıniya, Rusiya və Türkiyənin Milli Olimpiya komitələrinin nümayəndələri və Avropa Olimpiya komitələrinin ekspertləri ilə birgə iclaslar keçirəcək. Nümayəndələr, həmçinin, yarışların keçiriləcəyi idman obyektlərinə baş çəkəcək, Atletlər kəndində yaradılan şəraitlə tanış olacaqlar.

Qeyd edək ki, II Avropa oyunları Minskin 12 idman obyektində keçiriləcək. Oyunlarda 50 ölkədən 4 mindən çox atlet 15 idman növü üzrə 200 medal dəsti uğrunda mübarizə aparacaq. İdmanın 10 növü üzrə yarışlar 2020-ci ildə Tokioda keçiriləcək XXXII Olimpiya Oyunlarına təsnifat mərhələsi olacaq.

# Daha bir idman növü populyarlaşır

Azərbaycan idmançısı, yaxtaçı Kristina Kərimova Sloveniyada keçirilən beynəlxalq «Easter Regatta» yarışlarında uğurlu çıxışı ilə yadda qalıb. Azərbaycan Yelkən İdmanı Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, K.Kərimova 139 yaxtaçının iştirak etdiyi yarışda dördüncü yeri tutaraq, bu idman növü üzrə ölkəmizin tarixində ilkə imza atıb.

Qeyd edək ki, 2014-cü ildən bəri Federasiyanın maddi bazası möhkəmləndirilir. Burada peşəkar məşqçisi korpusu formalaşıb, xaricdən gəlmiş mütəxəssislərin rəhbərliyi ilə «Optimist» və «Laser» komandaları yaradılıb. Bu, Azərbaycanda idmanın bütün növlərinə dövlət səviyyəsində göstərilən dəstək sayəsində mümkün olub. Gənc idmançımızın bu uğurları belə deməyə əsas verir ki, qarşıda bizim yaxtaçıları daha böyük nailiyyətlər gözləyir.

## mozaika

### robototexnika

# İnsanın mimikasını təkrarlayan robot

Böyük Britaniyanın Kembric Universitetinin professoru Piter Robinson insanın mimikasını tanıyan və təkrarlayan robot yaradıb. «Çarlz» adlı robot Kembric Universitetinin texnologiyalar və kompüter elmləri bölməsinin proqramının bir hissəsidir. Əməkdaşlar insanlarla robotların qarşılıqlı əlaqəsinin müxtəlif üsullarını araşdırırlar. Onlar robotun cavablarında emosiyaların mövcudluğunun ünsiyyətin daha yaxşı alınmasına imkan yaradacağını düşünürlər.



«Biz kompüterlərə sosial siqnalları, üz ifadəsi, səsin tonu və jestləri anlamaq qabiliyyəti vermək niyyətində idik. Düşündük ki, robotun cavablarında nə qədər çox emosiya olarsa, insanlar onunla daha çox qarşılıqlı əlaqədə olacaqlar», - deyə professor bildirib.

Çarlz öz üz əzələlərini idarə edən 24 motora malikdir. Robot qaş, ağız, çənə və üzünün digər hissələrini hərəkət etdirir. Siqnal videokameradakı məlumatları analiz edən proqram təminatının quraşdırıldığı kompüterdən daxil olur. Kamera insanın sifətini çəkir və şəkli kompüterə göndərir. Bütün proses üç saniyə ərzində baş verir.

Professor Robinson robotun daha da təkmilləşdirilməsinin vacibliyini qeyd edib: «Çarlz insana çox bənzəyir. Lakin mexaniki motorlar əsl əzələlərlə rəqabət apara bilmir. Üz ifadəsinə nəzarət edən proqramlarımız hələlik idealdan uzaqdır. Həmçinin, analitik proqram təminatı mükəmməl olmadığından, mimika qeyri-təbii görünür».

### texnologiya

# 3D-printer ev tikəcək

ABŞ-ın Texas ştatının Ostin şəhərində keçirilən «SXSW» konfransında 3D-çapın köməyi ilə betondan tikilən evin modeli təqdim edilib. Altmış kvadratmetr sahəyə malik evin çap edilməsi prosesinə təxminən 48 saat sərf olunur. Tikinti üçün 10 min dollar xərclənir. İstehsalçılar ümid edirlər ki, xərclərin optimallaşdırılması və avtomatlaşdırılmış printerin təkmilləşdirilməsi ilə tikintiyə sərf olunan vaxtı 12-24 saatadək azaltmaq mümkün olacaq.

Robot-printer avtomatlaşdırılmış layihələndirmə üçün standart proqram təminatının köməyi ilə yaradılan çertyojlar üzrə işləyir. Beləliklə, bu evlərin gələcək sahibləri şəxsi evlərini yarada və ya hazır olanlardan birini seçə biləcəklər.

Layihə «Icon» tikinti şirkəti və inkişaf edən ölkələrdə evlərin inşasına kömək göstərən «New Story» qeyri-kommersiya təşkilatı tərəfindən həyata keçiriləcək. Dünyada bir milyarddan çox evsiz insan yaşayır. Ucuz və asanlıqla tikilən ev layihəsi onlara ümid vermək üçün nəzərdə tutulub. Silikon vadisi tərəfindən maliyyələşdirilən layihəyə cari ildə Salvador şəhərində başlanacaq. Əvvəlcə sınaq üçün bir neçə ev tikiləcək. Layihə uğur qazanarsa, belə konstruksiyalar milyonlarla insana kömək edə biləcək. 3D-çap texnologiyası ilə inşa ediləcək evlər ailələrə faizsiz ipoteka ilə 10 il müddətinə aylıq 30 dollar ödəmək şərti ilə veriləcək.



### mədəniyyət

# Nigeriya «ulduzları» Azərbaycan geyimlərində

Azərbaycanda səfərdə olan Nigeriya çəkiliş qrupu ölkəmiz, onun tarixi, ənənələri, mədəniyyəti, dəbi, turizm və mətbəxi haqqında silsilə verilişlər hazırlayacaq. Verilişlər Nigeriyanın və Afrikanın digər ölkələrinin 10-dan çox telekanalında təqdim ediləcək. Layihənin təşkilatçısı Nigeriyadan olan həmyerlimiz, Beynəlxalq Qadın Təşkilatının meneceri, Azərbaycan-Nigeriya Dostluq Cəmiyyətinin rəhbəri Billurə Bayramovadır.



Silsilə verilişlər may-iyul aylarında Afrika ölkələrinin televiziya ulduzları Cina Exikodiojo və Cennifer Centetin (Fransa vətəndaşı) hazırladıqları populyar «Foodies anad Spice» və «Lives of Nigerians in Diaspora» televiziya verilişləri çərçivəsində yayımlanacaq. Afrikalı qonaqlar Azərbaycan Milli Geyim Mərkəzinin və Gulnara Khalilova Dəb Evinin rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Xəlilovanın qonağı olublar. Onlar ölkəmizdə dəb sənayesinin inkişafı və Azərbaycan milli geyiminin ənənələri haqqında ondan müsahibə alıblar. Gülnarə Xəlilova qonaqlara əl işlərindən ibarət suvenirlər hədiyyə edib.

Billurə Bayramovanın sözlərinə görə, səfərin təşkilində əsas məqsəd Azərbaycanı Afrika ölkələrində təbliğ etməkdir. Novruz bayramında Bakıda olan Cina Exikodiojo və Cennifer Centet Şəki, Lahıc, Tərtər və ölkənin digər şəhərlərinə səfər ediblər, Azərbaycanın qonaqpərvərliyinə, təbiətinin gözəlliyinə, memarlıq abidələrinə və müasir binalarına, milli mətbəxinə və ölkə təbiətinə heyran qaldıqlarını bildiriblər.

### incəsənət

# «Azərbaycanın məhəbbət mahnıları»Türkiyədə

Satışa çıxarılmış «Azərbaycanın məhəbbət mahnıları» adlı albom «Ahenk müzik» firması tərəfindən hazırlanıb. İstanbulun Mərmərə Universitetinin musiqi fakültəsinin məzunu Utku Barış Andaç və İstanbul Texniki Universitetini səsyazma və studiya texnologiyaları ixtisası üzrə bitirmiş Ozan Sarıboğanın tərtib etdikləri iyirmi mahnının instrumental ifasından ibarət alboma Azərbaycanın görkəmli bəstəkarları Tofiq Quliyevin «Qəmgin mahnı», «Sənə də qalmaz», Rauf Hacıyevin «Nazəndə sevgilim», Cahangir Cahangirovun «Ay qız» və digər əsərlər, həmçinin xalq mahnıları daxil edilib. Mahnıların instrumental ifaçıları da Utku Barış Andaç (skripka) və Ozan Sarıboğandır (fortepiano).

Albomun tərtibçiləri mətbuata müsahibələrində bildiriblər ki, onların məqsədi qardaş Azərbaycanın Türkiyədə tanınmayan musiqi nümunələrini təbliğ etmək və bəzən anonim mahnılar kimi təqdim olunan əsərlərin müəlliflərini üzə çıxarmaqdır.

### cəmiyyət




# Həmyerlimiz «Forbes» jurnalının reytinqdə

Dünyanın nüfuzlu nəşrlərindən olan «Forbes» jurnalındakı gənc ixtiraçıların reytinq cədvəlinə ilk dəfə azərbaycanlı yeniyetmənin - Reyhan Camalovanın adı daxil edilib.

Forbes»in hesabatında ən gənc ixtiraçılardan biri kimi yer alan R.Camalova «İstək» liseyinin şagirdidir. Onun hazırladığı yağış suyundan enerji istehsal edən «Reynerci (Rainergy)» qurğusu jurnalda ən diqqətçəkən ixtiralardan biri kimi qeyd olunub.

### Müdriklər deyib ki...

***«Təsadüfi kəşfləri yalnız hazırlığı olan zəkalar edir».***

***Blez Paskal (1623-1662)***

